RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 140 (9019) ÇƏRŞƏNBƏ AXŞAMI, 5 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq bir sıra mühüm sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib



*Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Cozef Baydenə*

Hörmətli cənab Prezident!

4 İyul - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

30 ildir ki, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və tərəfdaşlıq münasibətləri birləşdirir. Biz ilk gündən ölkəmizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə ABŞ-ın dəstəyini yüksək qiymətləndiririk.

Ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq ikitərəfli və çoxtərəfli müstəvidə uğurla davam edir. Beynəlxalq təhlükəsizliyin təmin olunması və terrorizmə qarşı mübarizədə uzun müddətdən bəri davam edən birgə fəaliyyətimiz məmnunluq doğurur. Enerji təhlükəsizliyi məsələlərində ölkələrimizin sıx əməkdaşlığı, həyata keçirdiyimiz irimiqyaslı transmilli layihələrdə ABŞ-ın yaxından iştirakı və hərtərəfli dəstəyi müvəffəqiyyətimizin əsas amillərindəndir.

Bu gün Azərbaycan ilə ABŞ arasında bir sıra mühüm sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş əməkdaşlığımız siyasi əlaqələrimizin də genişlənməsinə şərait yaratmışdır. Ölkələrimizin enerji, təhlükəsizlik və terrorizmə qarşı mübarizədə əməkdaşlığı nümunəvi xarakter daşıyır.

Cənubi Qafqazda davamlı sülhün, iqtisadi tərəqqinin bərqərar olması üçün əlverişli şəraitin formalaşdığı bir zamanda biz ABŞ-ın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında, kommunikasiyaların açılmasında, insanlararası təmasların yaradılmasında mühüm rol oynaya biləcəyinə inanırıq. Eyni zamanda tərəfimizdən təqdim olunan beş prinsip əsasında Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması prosesinə ABŞ-ın dəyərli töhfə verə biləcəyi qənaətindəyik.

İşğaldan azad edilmiş ərazilərimizdə Ermənistan tərəfindən basdırılmış minalar burada apardığımız bərpa və yenidənqurma işlərinə ən böyük əngəl olaraq qalmaqdadır. Biz minatəmizləmə işində ABŞ-ın ölkəmizə göstərdiyi yardımı təqdir edirik. Ermənistan-Azərbaycan münaqişəsi zamanı itkin düşmüş 4000-ə yaxın soydaşımızın taleyinin aydınlaşdırılması məsələsində də ölkənizin dəstəyinə böyük ümidlər bəsləyirik.

Hörmətli cənab Prezident!

Əminəm ki, Azərbaycan ilə ABŞ-ı birləşdirən dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da müvəffəqiyyətlə davam edəcək və genişlənəcəkdir.

Fürsətdən istifadə edərək bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Amerika Birləşmiş Ştatlarının dost xalqına daim firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyul 2022-ci il*



## Azərbaycanın baş tikinti meydanı

### İlham Əliyev bir güllə atılmadan düşməndən geri aldığı Kəlbəcəri dünyanın ən möhtəşəm məkanlarından birinə çevirir

8

## Şarl Mişel İlham Əliyevə zəng etdi

*Cənubi Qafqazda sabitlik, sülh və təhlükəsizliyin təmin olunması Avropa İttifaqı üçün vacibdir*



**İyulun 4-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Söhbət zamanı Brüssel gündəliyinə aid məsələlər müzakirə olundu.**

Şarl Mişel Cənubi Qafqazda sabitlik, sülh və təhlükəsizliyin təmin olunmasının Avropa İttifaqı üçün vacibliyini vurğuladı. O, Avropa İttifaqının Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində səylərini davam etdirəcəyini bildirdi.

Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə keçirilmiş üçtərəfli görüşləri, bu çərçivədə əldə olunmuş razılaşmaları qeyd edərək, ölkəmizin Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində danışıqların real nəticələrə gətirib çıxaracağına ümidvar olduğunu ifadə etdi.

Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın üzləşdiyi genişmiqyaslı mina problemini qeyd etdi və birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən itkin düşmüş hesab olunan 4000 nəfərə yaxın azərbaycanlının taleyinə Ermənistan tərəfindən aydınlıq gətirilməsinin vacibliyini vurğuladı.

***Prezidentin Mətbuat Xidməti***

# Şuşadan dünyaya sülh və əməkdaşlıq çağırışı

## Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi Azərbaycanın Zəfərinə Qarabağda şahidlik etdi

**"...Azərbaycanın Qoşulmama Hərəkatının sədri qismində irəli sürdüyü təşəbbüslər həmrəyliyi və qarşılıqlı dəstəyi möhkəmləndirməyə, təsisatımızın institusional inkişafına və bəlkə də müəyyən mərhələdə onun təşkilata çevrilməsinə yönəlib".**

Prezident İlham Əliyev bu fikirləri ötən həftə Bakının uğurla evsahibliyi etdiyi daha bir beynəlxalq tədbirdə - Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr edilən Bakı konfransında bəyan etdi. İlham Əliyev ona da əmin olduğunu bildirdi ki, parlament şəbəkəsi təkcə ölkələr arasında həmrəyliyə töhfə verməyəcək, eyni zamanda dünyanın müxtəlif parlament təşkilatları ilə sıx iş münasibətləri quracaq.

40-dan çox ölkənin parlamenti və 9 beynəlxalq parlament təşkilatı təmsil olunan Bakı konfransı Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentlərarası əməkdaşlığa verdiyi əhəmiyyətin əyani göstəricisi oldu. Konfrans iştirakçılarının Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfər etmələri isə hərəkatın daim sülh və barışığa tərəfdar olmasının, eyni zamanda Zəfər qalamızın qlobal əməkdaşlıq platformasına çevrilməsinin daha bir təntənəli nümayişi idi.

### Yüksək etimad, uğurlu nəticə

Azərbaycan BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına (QH) 2011-ci ildə tamhüquqlu üzv olub. 120 ölkəni birləşdirən QH-yə üzv olduğu ilk gündən etibarən ölkəmiz bütün dövlətlərlə bərabər əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş siyasət həyata keçirir və hərəkatın bütün təşəbbüslərinə çox fəal şəkildə qoşulur. Buna görədir ki, Azərbaycan hərəkata üzv olduğu çox qısa zamanda yürütdüyü xarici siyasəti sayəsində bu təsisat daxilində böyük nüfuz və etimad qazanıb.

2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısını müvəffəqiyyətlə həyata keçirən Azərbaycan 2019-2022-ci ilə qədər sədrliyi üzərinə götürüb. Yenə də ölkəmizə böyük hörmət və yüksək etimadın nəticəsi olaraq 120 ölkənin yekdil qərarı ilə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi 2023-cü ilin axırınadək uzadılıb.

Hərəkata sədrlik etdiyi dövrdə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə təşkilat tərəfindən mühüm qlobal tədbirlər həyata keçirilib. Xüsusən Prezident İlham Əliyevin təşəbbüsləri ilə QH-nin pandemiya ilə mübarizə tədbirləri qlobal səviyyədə təqdir olunub. 2021-ci ilin dekabrında BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında hərəkatın sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə hərəkat üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul edilib.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransındakı çıxışında Prezident İlham Əliyev onu da söylədi ki, bizim səylərimiz təkcə həmrəyliyin gücləndirilməsinə və dəstəyin təmin edilməsinə yönəlməmişdir, eyni zamanda ölkələrə dəstək, tibbi və humanitar yardımla bağlı bizim məlumat bazasından istifadə etməyə başlamış Ümumdünya Səhiyyə Təşkilatı üçün də faydalı oldu.

2



## Dağlıq və dağətəyi ərazilərdə taxıl biçini sürətlənir

10

## "Dəmir yumruq" Minsk qrupunu tarixin arxivinə atdı

Azərbaycan döyüş meydanındakı uğurunu siyasi-diplomatik sferada layiqincə davam etdirir

9

## Erməni nümayəndə heyətinin ATƏT PA-dakı bütün cəhdləri iflasa uğradı

"Dağlıq Qarabağ münaqişəsi və Minsk qrupunun" "dirçəldilməsi" və erməni terrorçularının dərhal azad olunması tələbi ATƏT PA-da rədd edilib

3

## Avropa İttifaqının İrəvandakı ofisinə yürüş edildi

Ermənistanda itaətsizlik edənləri orduya göndərirlər

11

## Meymunçiçəyinə yoluxanların sayı Avropada üç dəfə artıb

Azərbaycan ÜST-dən ehtiyac yarandıqda istifadə edilməsi üçün 3000 test dəstini təhvil alıb

11

# "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında"Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, №12, maddə1301) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddədə hər iki halda "5 306 770 072,0" rəqəmləri "5 606 269 569,0" rəqəmləri ilə əvəz edilsin;

1.2. 2-ci maddə üzrə:

1.2.1. 1-ci hissədə "4 148 202 903,0" rəqəmləri "4 361 702 400,0" rəqəmləri ilə əvəz edilsin;

1.2.2. 1.1-ci bənddə "1 504 298 579,0" rəqəmləri "1 492 066 100,0" rəqəmləri ilə əvəz edilsin;

1.2.3. 1.2-ci bənddə "205 131 624,0" rəqəmləri "203 463 600,0" rəqəmləri ilə əvəz edilsin;

1.2.4. 1.3-cü bənddə "2 438 772 700,0" rəqəmləri "2 666 172 700,0" rəqəmləri ilə əvəz edilsin;

1.2.5. 3-cü hissədə "1 145 967 169,0" rəqəmləri "1 231 967 169,0" rəqəmləri ilə əvəz edilsin;

1.3. 3-cü maddə üzrə:

1.3.1. 1-ci hissədə "5 133 000 000,0" rəqəmləri "5 431 199 497,0" rəqəmləri ilə əvəz edilsin;

1.3.2. aşağıdakı məzmunda 1.1-1-ci və 1.1-2-ci bəndlər əlavə edilsin:

| | | |
|---|---|---|
| 1.1-1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 2022-ci il yanvarın 1-dək pensiya təyin edilmiş əmək pensiyaçılarına (qulluq stajına görə əlavələr alan əmək pensiyaçıları istisna olmaqla) müəyyən edilmiş rüblük maddi yardım xərcləri | 220 000 000,0 |
| 1.1-2. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 2022-ci il yanvarın 1-dək pensiya təyin edilmiş qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına müəyyən edilmiş aylıq maddi yardım xərcləri | 86 000 000,0 |

1.3.3. 1.2-ci bənddə "182 000 000,0" rəqəmləri "174 199 497,0" rəqəmləri ilə əvəz edilsin;

1.3.4. 1.2.1-ci yarımbənddə "52 000 000,0" rəqəmləri "46 000 000,0" rəqəmləri ilə əvəz edilsin;

1.3.5.1.2.2-ci yarımbənddə "50 000 000,0" rəqəmləri "47 100 000,0" rəqəmləri ilə əvəz edilsin;

1.3.6. 1.2.3-cü yarımbənddə "20 000 000,0" rəqəmləri "24 000 000,0" rəqəmləri ilə əvəz edilsin;

1.3.7. 1.2.4-cü yarımbənddə"15 000 000,0" rəqəmləri "12 099 497,0" rəqəmləri ilə əvəz edilsin;

1.3.8. 3-cü hissədə "48 700 000,0" rəqəmləri "50 000 000,0" rəqəmləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanunun1.3.2-ci maddəsi 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2022-ci il*

---

# "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 563-VIQD nömrəli Qanununun tətbiqi və "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 402-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1529 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 563-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 1-ci hissəsinin 1.1-1-ci və 1.1-2-ci bəndlərində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin 1-ci hissəsinin 1.1-1-ci və 1.1-2-ci bəndlərində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

2. "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 402-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1529 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1394) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bəndə "3-cü maddəsinin" sözlərindən sonra "1-ci hissəsinin 1.1-1-ci və 1.1-2-ci bəndlərində," sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 1.1-1-ci bənd əlavə edilsin:

"1.1-1. həmin Qanunun 3-cü maddəsinin 1-ci hissəsinin 1.1-1-ci və 1.1-2-ci bəndlərində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 563-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyul 2022-ci il*

---

# "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1302) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddədə hər iki halda "180 375 536,0" rəqəmləri "181 375 536,0" rəqəmləri ilə əvəz edilsin.

2. 2-ci maddə üzrə:

2.1. 1-ci hissədə "136 418 476,0" rəqəmləri "143 342 200,0" rəqəmləri ilə əvəz edilsin;

2.2. 1.1-ci bənddə "21 709 238,0" rəqəmləri "20 621 100,0" rəqəmləri ilə əvəz edilsin;

2.3. 1.2-ci bənddə "21 709 238,0" rəqəmləri "20 621 100,0" rəqəmləri ilə əvəz edilsin;

2.4. 1.3-cü bənddə "93 000 000,0" rəqəmləri "102 100 000,0" rəqəmləri ilə əvəz edilsin;

2.5. 3-cü hissədə "2021-ci ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti" sözləri "Əvvəlki illərdə işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaitindən cari ilin xərclərinə yönəldilən məbləğ" sözləri ilə, "43 907 060,0" rəqəmləri "37 983 336,0" rəqəmləri ilə əvəz edilsin.

3. 3-cü maddənin 5-ci hissəsində "2 500 000,0" rəqəmləri "3 500 000,0" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2022-ci il*

---

# Abşeron rayonunun Bakı-Şamaxı-Yevlax (18 km)-Aşağı Güzdək avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı-Şamaxı-Yevlax (18 km)-Aşağı Güzdək avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyul 2022-ci il*

---

# Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan diasporu ilə iş sahəsində dövlət siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Muradov Fuad Rauf oğlu

**"Tərəqqi" medalı ilə**

Ağayev Ziya Zəvair oğlu
Əliyev Elşad Nuqay oğlu
Hüseynov Adil Hüseynağa oğlu
Xəlilova Esmira İsmət qızı
Qaraxanova Türkan Nazim qızı
Məmmədov Vüsal Adil oğlu
Rəcəbli Daşqın Allahverdi oğlu
Seyidbəyov Vaqif Həsən oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyul 2022-ci il*

---




# Şuşadan dünyaya sülh və əməkdaşlıq çağırışı

### Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi Azərbaycanın Zəfərinə Qarabağda şahidlik etdi

**"...Azərbaycanın Qoşulmama Hərəkatının sədri qismində irəli sürdüyü təşəbbüslər həmrəyliyi və qarşılıqlı dəstəyi möhkəmləndirməyə, təsisatımızın institusional inkişafına və bəlkə də müəyyən mərhələdə onun təşkilata çevrilməsinə yönəlib".**

Prezident İlham Əliyev bu fikirləri ötən həftə Bakının uğurla evsahibliyi etdiyi daha bir beynəlxalq tədbirdə - Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr edilən Bakı konfransında bəyan etdi. İlham Əliyev ona da əmin olduğunu bildirdi ki, parlament şəbəkəsi təkcə ölkələr arasında həmrəyliyə töhfə verməyəcək, eyni zamanda dünyanın müxtəlif parlament təşkilatları ilə sıx iş münasibətləri quracaq.

40-dan çox ölkənin parlamenti və 9 beynəlxalq parlament təşkilatı təmsil olunan Bakı konfransı Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentlərarası əməkdaşlığa verdiyi əhəmiyyətin əyani göstəricisi oldu. Konfrans iştirakçılarının Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfər etmələri isə hərəkatın daim sülh və barışığa tərəfdar olmasının, eyni zamanda Zəfər qalamızın qlobal əməkdaşlıq platformasına çevrilməsinin daha bir təntənəli nümayişi idi.

### Yüksək etimad, uğurlu nəticə

Azərbaycan BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına (QH) 2011-ci ildə tamhüquqlu üzv olub. 120 ölkəni birləşdirən QH-yə üzv olduğu ilk gündən etibarən ölkəmiz bütün dövlətlərlə bərabər əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş siyasət həyata keçirir və hərəkatın bütün təşəbbüslərinə çox fəal şəkildə qoşulur. Buna görədir ki, Azərbaycan hərəkata üzv olduğu çox qısa zamanda yürütdüyü xarici siyasəti sayəsində bu təsisat daxilində böyük nüfuz və etimad qazanıb.

2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısını müvəffəqiyyətlə həyata keçirən Azərbaycan 2019-2022-ci ilə qədər sədrliyi üzərinə götürüb. Yenə də ölkəmizə böyük hörmət və yüksək etimadın nəticəsi olaraq 120 ölkənin yekdil qərarı ilə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi 2023-cü ilin axırınadək uzadılıb.

Hərəkata sədrlik etdiyi dövrdə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə təşkilat tərəfindən mühüm qlobal tədbirlər həyata keçirilib. Xüsusən Prezident İlham Əliyevin təşəbbüsləri ilə QH-nin pandemiya ilə mübarizə tədbirləri qlobal səviyyədə təqdir olunub. 2021-ci ilin dekabrında BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında hərəkatın sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə hərəkat üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul edilib.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransındakı çıxışında Prezident İlham Əliyev onu da söylədi ki, bizim səylərimiz təkcə həmrəyliyin gücləndirilməsinə və dəstəyin təmin edilməsinə yönəlməmişdir, eyni zamanda ölkələrə dəstək, tibbi və humanitar yardımla bağlı bizim məlumat bazasından istifadə etməyə başlamış Ümumdünya Səhiyyə Təşkilatı üçün də faydalı oldu.

Azərbaycanın QH-yə sədrlik etməsinin uğurlu nəticələrindən biri də Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ilin noyabr ayında Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin təsis olunmasıdır. Parlament şəbəkəsi QH-nin prinsip, ideya və məqsədlərinin həyata keçirilməsində parlamentarilərin konstruktiv rolu nəzərə alınaraq, üzv dövlətlərin parlamentləri arasında əlaqələrin dərinləşdirilməsi məqsədini daşıyır.

### Qürur zirvəmizə səfər

Qoşulmama Hərəkatının təməl ideyasını sülh, təhlükəsizlik və dayanıqlı inkişafın qorunub saxlanılması təşkil edir və bu baxımdan QH Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak edən nümayəndə heyətlərinin üzvlərinin iyulun 2-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfər etmələri də bir daha bu bəşəri ideyalara sadiqliyi bariz şəkildə sübut etdi.

Şuşa şəhərinə səfərdə Özbəkistan, Qırğızıstan, Malayziya, Liviya, Benin, Bəhreyn, Car, Cibuti, Ekvador, Kamboca, Qambiya, Mozambik, Namibiya, Nepal, Uqanda, Venesuela, Yəmən və Suriya parlament nümayəndə heyətlərinin rəhbərləri, onları müşayiət edən şəxslər, habelə İslam Əməkdaşlıq Təşkilatının, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdilər.

Yeri gəlmişkən, vurğulayaq ki, Azərbaycan xalqı haqq və ədalət uğrunda çıxdığı Vətən müharibəsini qələbə ilə başa çatdırdıqdan sonra işğaldan azad etdiyi tarixi torpaqlarında yenidən həyatın canlanmasını təmin etmək üçün böyük quruculuq, bərpa işlərinə başlayıb. Parlaq Zəfərimizin üzərindən ötən qısa zamanda 30 ildir ki, erməni vəhşiliyi ilə üz-üzə qalan yurdlarımız artıq dirçəlməyə başlayıb. Qarabağda, Şərqi Zəngəzurda anbaan baş verən bu əzəmətli dəyişikliyi bütün dünya da yaxından izləyir. Artıq bu xoş bir ənənəyə çevrilib ki, Azərbaycana səfər edən həm xaricdə yaşayan həmvətənlərimiz, həm də beynəlxalq ictimaiyyətin nümayəndələri mütləq azad yurdlarımıza gedir, Zəfər yolu ilə qələbə rəmzimiz Şuşaya səfər edirlər.

### Erməni vandallığından dünya dəhşətə gəlir

QH Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak edən nümayəndə heyətlərinin üzvləri də bu dəyişilməz ənənəyə sadiq qalaraq yollarını Qarabağımızın baş tacından saldılar.

Milli Məclisin spikeri, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin sədri Sahibə Qafarova və digər rəsmi şəxslərin müşayiət etdiyi qonaqlar səfər çərçivəsində Qarabağın "Hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanında oldular və Prezident İlham Əliyevin sərəncamı ilə qısa müddətdə tikilərək istifadəyə verilmiş bu hava limanının texniki imkanları ilə maraqlandılar.

Füzulidən Şuşaya yola düşən səfər iştirakçıları yolboyu Ermənistanın işğalı dövründə dağıdılmış və viran qoyulmuş kəndləri, yaşayış evlərini öz gözləri ilə gördülər, işğal dövründə Azərbaycanın şəhər və qəsəbələrinin, məktəblərin, mədəniyyət evlərinin və abidələrinin, kitabxanaların işğalçı qüvvələr tərəfindən necə viran edildiyi, xaraba qoyulduğu barədə məlumatlandırıldılar.

Şuşanın qədim Qala divarlarını seyr edən qonaqlara şəhər meydanı və orada qoyulmuş Azərbaycanın görkəmli mədəniyyət xadimləri Xurşidbanu Natəvanın, Bülbülün, Üzeyir bəy Hacıbəylinin ermənilər tərəfindən güllələnmiş heykəlləri barədə də məlumat verildi. Gəzinti zamanı qonaqlar Şuşa şəhərində ermənilərin tarixi və mədəniyyət abidələrimizə vurduqları ziyanın əyani şahidi oldular.

### Qurucu Azərbaycan xalqı

Əlamətdar tədbirlərin keçirildiyi Cıdır düzündə olan Bakı konfransının iştirakçıları keçilməz sıldırımları aşaraq buraya qalxan və canları, qanları bahasına Şuşanı azad edərək Azərbaycana zəfər qazandıran qəhrəman oğullarımızın şücaətlərindən də xəbərdar oldular.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransının iştirakçıları yolboyu işğaldan azad olunmuş ərazilərdə dövlətimizin apardığı quruculuq və abadlıq işlərinə də şahidlik etdilər. Şuşada parlament nümayəndə heyətlərinə Qala divarları, şəhərin tarixi, işğal dövründəki vəziyyəti və bu gün aparılan quruculuq və abadlıq işləri barədə geniş məlumat verildi.

Şəhərdəki tarixi abidələrin və məscidlərin Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti ilə bərpa olunduğu bildirildi.

Ölkəmizə gələrək Qarabağa səfər edən dünya ictimaiyyətinin digər nümayəndələri kimi, QH Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak edən nümayəndə heyətlərinin üzvləri də Şuşada olarkən bir daha işğalçı ermənilərin vandallıqlarını, eləcə də Azərbaycan xalqının və dövlətinin işğaldan azad etdiyi tarixi torpaqlarında qısa müddət ərzində gördüyü böyük işlərin fonunda onun gücünü və əzmini gördülər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "Tarixi Azərbaycan torpaqlarındakı maddi-mədəni irsimiz: İrəvandan Zəngəzuradək" kitabının təqdimatı keçirilib



İyulun 4-də "Tarixi Azərbaycan torpaqlarındakı maddi-mədəni irsimiz: İrəvandan Zəngəzuradək" kitabının təqdimatı keçirilib.




AZƏRTAC xəbər verir ki, Sosial Tədqiqatlar Mərkəzi (STM) tərəfindən ərsəyə gətirilən kitabda tarixi və geosiyasi vəziyyətə, Cənubi Qafqazın erməniləşdirilməsi və ermənilərin tarixi torpaqlarımızda maddi-mədəni irsi işğal siyasətinə, 1988-1989-cu il deportasiyasına yer verilib.

Təqdimat mərasimində çıxış edən Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc bildirib ki, Vətən müharibəsində Qələbə təkcə gələcəyimizə deyil, həm də keçmişimizə, çox minillik tariximizə həssas münasibətə, onu yenidən qiymətləndirməyə fürsətlər yaradır. "Erməni düşməni və işğal" terminlərini tarixə qovuşduran, bununla da yeni siyasi və milli kimlik qazanan xalqımız indi İrəvana və Zəngəzura, Göyçəyə və bütün tarixi torpaqlara gedən yolları inşa edir, çoxəsrlik qan yaddaşını qaytarır və mədəni-mənəvi intibahının yeni mərhələsinə qədəm qoyur. Prezident İlham Əliyevin "İrəvana qayıdacağıq, lakin dinc yolla" çağırışı hər hansı sülh razılaşmalarını gerçəkləşdirmək üçün taktiki təzyiq planından çox, uzağa gedən strateji dövlət kursudur. Ona görə də ölkə rəhbərinin Qarabağdan sonra dövlətimizin yeni milli hədəflərə yönəlmək, onun ideoloji-siyasi konseptini və elmi əsaslarını formalaşdırmaq çağırışına cavab olaraq, Sosial Tədqiqatlar Mərkəzi institusional bir əsəri Azərbaycan ictimaiyyətinə təqdim edir. Kitab yalnız dövlət rəsmiləri və diplomatik-siyasi heyət üçün deyil, daha çox xalqımıza onun taleyi ilə eyni aqibəti yaşayan, yüz illərlə dağıdılmaya məruz qalsa da yazılı mənbələrdə, bir-birini əvəzləyən nəsillərin yaddaşında diri və canlı qalan maddi-mədəni irs nümunələrini bir araya gətirməklə ümumxalq ensiklopediyası yaratmağa çalışır. Mühüm milli və mənəvi ideyalara söykənən tədqiqatın nəticəsi olan "Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz" kitabı təkcə hazırki Ermənistanda azərbaycanlılara məxsus irsin məhv edilməsi və yer üzündən silinməsinin miqyasını, statistikasını göstərmir, həm də abidələrin daşıdığı yaddaşı, əfsanələri, inanc və hekayələri onların pasportu, ruhi və fiziki kimliyi, milli tariximizin "hard-diski" şəklində yenidən bərpa edir.

Məlumat verilib ki, kitabda 244 abidənin tarixi hərtərəfli araşdırılır və düzgün elmi təsnifata uyğun onların reyestri verilir. Əsərdə 49 pir, ocaq və ziyarətgah, 40 məscid, 38 qəbirüstü abidə, 15 məbəd, 13 qala, 19 alban kilsəsi, 13 karvansara, 8 türbə, 6 etnoqrafik-arxeoloji abidə, 6 günbəz, 5 qəbirüstü heykəl, 5 körpü, 3 məqbərə, 3 sərdabə, 3 arxeoloji abidə, 3 daşüstü yazı, 2 mədrəsə, 2 məhəllə, 2 imarət, 9 qayaüstü təsvir, qədim yaşayış məskənləri haqqında yerli və xarici mənbələrdən toplanan məlumatlar ilk dəfə aşkarlanaraq mövcud siyahıya əlavə edilib. Yüzlərlə xarici və mötəbər ədəbiyyat sənədlərinə, etibarlı, nüfuzlu mərkəzlər tərəfindən qəbul olunan müəlliflərə istinad olunub.

"Prezidentin "Böyük qayıdış planı" bütün torpaqlarda maddi-mədəni irsimizi təzədən yaratmağı, bizi Kürəkçay, Gülüstan, Türkmənçay və Qars müqavilələrindən əvvəlki torpaqlara qaytarmağı hədəf alır. Bu, əlbəttə, silahlı və hərbi işğalları deyil, məhz silahsız müharibələri, sülh savaşlarını nəzərdə tutur. Şübhə yoxdur ki, bu mübarizə fərqli ordunun-elmi, intellektual və ideya komandolarının, siyasi xüsusi təyinatlıların yaradılmasını tələb edir. Deməli, Böyük qayıdış təkcə Qarabağa deyil, bütün tarixi torpaqlara gedən yolun başlanğıcıdır. Planın birinci və ikinci mərhələsi babalarımızın, əcdadlarımızın mirası olan yerlərə dönüşü təmin etməklə bir milləti bütövlüyünə və əslikökünə qovuşduracaq", - deyə Zahid Oruc qeyd edib.

Qonşu ölkələrdəki arxiv sənədlərimizin araşdırılmasına başlanıldığını deyən mədəniyyət naziri Anar Kərimov Mədəniyyət Nazirliyi olaraq hazırda bu məsələnin üzərində iş getdiyini bildirib. Nazir qeyd edib ki, bu layihə çərçivəsində qonşu dövlətlərdəki olan arxiv sənədlərinin araşdırılması, əzəli torpaqlarımız olan İrəvanda və Zəngəzurda Azərbaycana aid tarix-mədəniyyət abidələri haqqında tədqiqatın həyata keçirilməsi, bunun nəticəsində nəşrlərin çap edilməsi və beynəlxalq səviyyədə təbliği nəzərdə tutulub.

A.Kərimov bərpa-quruculuq işlərinin digər tarixi torpaqlarımızda davam etdiriləcəyinə inamını ifadə edərək deyib: "Artıq zaman dəyişib. Ermənistan Respublikasının 30 ilə yaxın müddətdə işğal altında saxladığı doğma torpaqlarımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tərəfindən azad edilib. İndi həmin ərazilərdə quruculuq işləri aparılır. İnfrastruktur layihələri ilə bərabər tarixi-mədəni abidələrimiz də bərpa olunaraq əvvəlki simasına qaytarılır. Əminik ki, bu işlər Prezident İlham Əliyevin söylədiyi kimi, bizim tarixi torpaqlarımız olan İrəvan və Zəngəzurda da baş verəcək".

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli tariximizin indiki mərhələsində əzəli torpaqlarımızda - Ermənistan Respublikasının indiki ərazisində ermənilər tərəfindən dağıdılmış, mənimsənilmiş Azərbaycan abidələrinə, tarixi-mədəni irsimizə həsr olunmuş bu tədbirin əhəmiyyətini xüsusi vurğulayıb.

Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin tarixi irsimizin qorunmasına və təbliğinə daim xüsusi diqqət yetirdiklərini vurğulayan Əli Hüseynli bildirib: "Uzun illər ərzində həm postsovet məkanında, həm də dünyada Azərbaycan-Ermənistan konfliktinin Qarabağ münaqişəsi kimi çatdırılmasına cəhd olunub. Əslində isə hadisələrin başlanmasının əsas səbəbi Moskvada Ulu Öndərin ədalətsiz şəkildə hakimiyyətdən kənarlaşdırılması və bundan sonra azərbaycanlıların Ermənistandan deportasiya olunmasıdır. Təəssüf ki, o dövrdəki səriştəsiz şəxslər bunun qarşısının alınması istiqamətində addım atmadılar. Hətta bu hadisələri işıqlandırmağa belə cəhd etmədilər. Buna görə də azərbaycanlıların deportasiyası mövzusu qapalı qaldı. Bundan istifadə edən ermənilər sonra isə Qarabağ mövzusunu önə çəkə bildilər".

Bu kitabın mühüm məsələləri əks etdirdiyini, Azərbaycanın qədim torpaqlarının Ermənistan tərəfindən mənimsənilməsinin qarşısının alınması istiqamətində uğurlu nəticələr verə biləcəyini deyən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı nəşrin xarici dillərdə də tərcümə ediləcəyini vurğulayıb.

"Biz 44 günlük Vətən müharibəsində qalib gəlmişik. Ermənilər tarixi-dini abidələrimizi saxtalaşdırıblar. Nəinki İslam dininə aid, hətta Qafqaz Albaniyasına aid abidələri də məhv edib, mənimsəyiblər. Biz həmin tarixi-dini abidələrin varisiyik. Bu gün ermənilər Qafqazda olan abidələrin onların olması barədə saxta yazılar nəşr etdirirlər. Tarixi sənədlərə nəzər salsaq görərik ki, orada erməni adlarına rast gəlinmir. Amma ermənilər Azərbaycana məxsus ərazilərin adlarını dəyişiblər. Bu da erməni saxtakarlığın bariz nümunəsidir. Tarixi adların geri qaytarılması çox vacib əhəmiyyətə malikdir", - deyə M.Qurbanlı əlavə edib.

Türkmənçay və Ədirnə müqavilələrindən sonra Azərbaycan torpaqlarına yüz minlərlə ermənilərin köçürülməsi prosesi başlandığını deyən Milli Məclisin deputatı, Qaçqınlar Cəmiyyətinin sədri Əziz Ələkbərli əlavə edib ki, 1988-1989-cu illərdəki deportasiya siyasəti SSRİ dağıldıqdan sonra indiki Ermənistanda daha qəddar şəkildə, vəhşicəsinə davam etdirilib. Ermənistan qanunverici orqanının qərarları ilə azərbaycanlılara məxsus yaşayış məntəqələrinin, eyni zamanda çayların, göllərin, təpələrin adları dəyişdirilib, tarixi, maddi-mədəni irs tamamilə silinib və erməniləşdirilib. Bu, Ermənistanda vandalizmin, yerli xalq olan azərbaycanlıların irsinə vəhşi münasibətin göstəricilərindən biri olsa da, mədəni dünya bu vəhşiliyə daim göz yumub. 1988-1989-cu illərdə Ermənistanın 22 rayonundan (172 sırf azərbaycanlı və 89 ermənilərlə qarışıq yaşayış məntəqələrindən 40 min 928 ailə - 250 minə yaxın azərbaycanlı deportasiya edilib. Bununla da tarixi Azərbaycan torpaqlarında monoetnik erməni dövlətinin əsası qoyulub. Azərbaycanlıların qoyub getdikləri yaşayış məntəqələrindəki 234 məktəb, 214 kitabxana, 268 mədəniyyət müəssisəsi, 235 səhiyyə ocağı, 112 uşaq bağçası, 152 məişət evi ermənilərin əlinə keçib. Azərbaycanlılara məxsus 223 qəbiristanlıq, 49 məscid, 68 tarixi, 7 memarlıq abidəsi tədricən erməni vandalları tərəfindən dağıdılıb.

Digər çıxış edənlər Cənubi Qafqazın erməniləşdirilməsi siyasətindən, XIX əsrin əvvəllərində Rusiya, Türkiyə və İran dövlətləri arasında bağlanan Kürəkçay, Gülüstan, Ədirnə və Türkmənçay müqavilələrindən sonra Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçünün başlanmasından danışıblar. Bildiriblər ki, bölgənin erməniləşdirilməsi siyasətinin əsas tutulması ilə buna paralel şəkildə tarixi Azərbaycan torpaqları olan İrəvan, Göyçə, Zəngəzur və Zəngibasar bölgəsində yaşayan azərbaycanlıların öz tarixi yurdlarından deportasiyasına və soyqırımına başlanılıb. Tarixdə ilk erməni dövlətinin 1918-ci il mayın 28-də keçmiş İrəvan xanlığının ərazisində yaradılmasından, Ermənistan adlanan dövlətin tarixi Azərbaycan ərazilərində qurulması haqqında məlumatlar verilib. Qeyd olunub ki, XX əsrin əvvəllərində Rusiyanın mərkəzi əyalətlərindən rusların, İran və Türkiyədən isə ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi ilə bölgədə əhalinin etnik tərkibi dəyişdirilib və ermənilərin bölgəyə gəlməsi ilə tarixi torpaqlar iğtişaş və münaqişə mərkəzinə çevrilib. İyirminci əsrdə ermənilərin azərbaycanlılara qarşı apardıqları etnik təmizləmə və tarixi abidələrə qarşı həyata keçirilən vandallıq aktları nəticəsində monoetnik erməni dövləti yaranıb. Azərbaycanlıların varlığını özündə əks etdirən bütün tarixi-memarlıq abidələri yer üzündən silinib, qəbiristanlıqlar dağıdılıb.

Tədbirin sonunda iştirakçılar tərəfindən əsrlərboyu azərbaycanlıların yaşadığı indiki Ermənistan Respublikasındakı ərazilərdə erməni dövlətinin həyata keçirdiyi maddi-mədəni abidələrin məhv edilməsi və erməniləşdirilməsi ilə bağlı UNESCO-nun baş direktoru Odri Azuleyə müraciət olunub.

# Azərbaycanın xarici işlər naziri İranda rəsmi səfərdədir

İyulun 4-də İrana rəsmi səfəri çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, İran Prezidenti Seyid İbrahim Rəisi iyunun 28-də Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayıb. O, Azərbaycan Prezidenti İlham Əliyevə səmimi salamlarını çatdırıb. Prezident Seyid İbrahim Rəisi İranla Azərbaycan arasında əlaqələrin dərin köklərə sahib olduğunu bildirib və iki ölkə arasında mədəni və tarixi əlaqələrin xalqlarımızın istəyindən irəli gəldiyini söyləyib. Bundan sonra da əlaqələrin inkişafının təmin olunması üçün ticarət dövriyyəsinin artırılmasının zəruriliyini vurğulayan Prezident Seyid İbrahim Rəisi ikitərəfli əlaqələrin regional əməkdaşlığa da öz töhfəsini verəcəyini qeyd edib.

Nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud olan tarixi, dini və mədəni bağlardan söhbət açaraq əlaqələrin inkişafında dövlət başçılarının görüşlərinin mühüm əhəmiyyət kəsb etdiyini söyləyib. Bu xüsusda iki ölkənin prezidentləri arasında qısa zamanda iki görüşün keçirilməsinin əhəmiyyətini vurğulayıb. Nazir Ceyhun Bayramov iki ölkə prezidentlərinin Aşqabadda keçirdiyi görüşdə əldə olunan razılıqlar və verilən tapşırıqlara müvafiq olaraq İranda öz həmkarı ilə faydalı danışıqların aparıldığını qeyd edib.

Nazir həmçinin iki ölkə arasında energetika, nəqliyyat, kommunikasiya sahələrində həyata keçirilən birgə layihələrdən söz açıb. Bu xüsusda Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılmasının, o cümlədən işğaldan azad edilmiş ərazilərdə birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüşdə həmçinin bölgədəki cari vəziyyət ətrafında fikir mübadiləsi aparılıb. Regional sülh və təhlükəsizliyin təmin edilməsinin və bu istiqamətdə region ölkələrinin əməkdaşlığının vacib olduğu bildirilib.

❖ ❖ ❖

İyulun 4-də İrana rəsmi səfəri çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov İran İslam Respublikasının İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqer Qalibaf ilə görüşüb.

Nazir Ceyhun Bayramov 2020-ci ilin dekabr ayında İrana səfərini və səfər çərçivəsində keçirdiyi səmimi görüşə istinad edib, qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrin inkişafındakı əhəmiyyətini ifadə edib.

Nazir Azərbaycan və İran prezidentlərinin Aşqabad şəhərində keçirdikləri görüşü, habelə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədrlərinin görüşünü, İran XİN rəhbərinin Azərbaycana səfərini, eyni zamanda xarici işlər nazirləri arasında baş tutan telefon danışıqlarının əhəmiyyətini, İran Parlamentinin nümayəndə heyətinin Azərbaycana səfərini, parlamentlərarası əlaqələrin inkişafı və bu istiqamətdə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının görüşlərinin xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Nazir Ceyhun Bayramov əməkdaşlığın parlament ölçüsü üzrə İran Parlamentinin vitse-spikerinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı Konfransında iştirakını qeyd edib.

M.B.Qalibaf Azərbaycan və İran arasında mədəni və dini qardaşlıq əlaqələrinə istinad edərək İran İslam Respublikasının qonşu ölkələr ilə əlaqələrinin inkişafının prioritet məsələ olduğunu diqqətə çatdırıb. O, İran tərəfinin iqtisadi və ticari əlaqələrin inkişafında maraqlı olduğunu vurğulayıb.

Məhəmməd Baqer Qalibaf Şərqi Zəngəzur iqtisadi rayonu və Naxçıvan Muxtar Respublikası arasında kommunikasiya bağlantılarının yaradılmasında İranın hər zaman dəstək verməyə hazır olduğunu və bu layihələrin həyata keçirilməsində İran tərəfinin qərarlı olduğunu bildirib. Eyni zamanda İran İslam Respublikasının Azərbaycanın Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında bərpa və quruculuq işlərində iştirak etməkdə maraqlı olduğunu ifadə edib.

Nazir Ceyhun Bayramov qarşı tərəfə cari regional vəziyyət, postmünaqişə dövründə Azərbaycanın sülhün və sabitliyin bərqərar olması üçün irəli sürdüyü təkliflər, bu istiqamətdə atdığı addımlar barədə məlumat verib.

Eyni zamanda İranla sərhəddə Azərbaycanın 132 kilometrlik sərhədinin işğaldan azad edilməsinin əməkdaşlıq üçün yeni imkanlar yaratdığı qeyd edilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələlər müzakirə edilib, regionda sülh və sabitliyin təmin olunmasının əhəmiyyəti vurğulanıb.

❖ ❖ ❖

İyulun 4-də İrana rəsmi səfəri çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir-Abdullahian ilə görüşüb.

Nazir Ceyhun Bayramov dəvətə və qonaqpərvərliyə görə təşəkkür ifadə edib. 2021-ci ilin dekabr ayında İran xarici işlər nazirinin Azərbaycana səfərini xatırlayan nazir qarşılıqlı səfərlərin ikitərəfli əlaqələn inkişafına verdiyi töhfəni qeyd edib. Qısa zamanda ölkə prezidentləri arasında iki dəfə görüşlərin keçirilməsinin Azərbaycan və İran arasında əlaqələrin inkişafının göstəricisi olduğu vurğulanıb.

Nazir Ceyhun Bayramov ötən il ərzində iki ölkə arasında ticarət dövriyyəsinin 30 faiz, 2022-ci ilin ilk yarısında isə 18 faiz artdığını qeyd edərək bu istiqamətdə inkişaf üçün potensialın daha çox olduğunu bildirib.

Azərbaycan və İran arasında energetika sahəsində əməkdaşlıq, bu xüsusda "Xudafərin" və "Qız Qalası" layihələrinin əhəmiyyəti ifadə edilib. Ölkələrimiz arasında xüsusilə nəqliyyat sahəsində səmərəli regional əməkdaşlığın mövcud olduğu, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyəti qeyd edilib.

Astarada dəmir yolu terminalının tikintisinin davam etdirilməsinin vacibliyi, eyni zamanda Astaraçay üzərində körpünün tikintisinin də uğurla davam etdirildiyi qeyd olunub.

Münaqişə sonrası mərhələdə azad olunmuş ərazilərdə Azərbaycan tərəfindən həyata keçirilən bərpa və quruculuq işlərindən bəhs edən nazir Ceyhun Bayramov İran şirkətlərinin bu prosesdə iştirakını məmnunluqla vurğulayıb.

Nazir həmkarına Azərbaycanın bölgədə sülh quruculuğu istiqamətində atdığı addımlar barədə məlumat verib, Azərbaycanın beynəlxalq hüquq prinsiplərinə ciddi riayət edilməsi əsasında münasibətlərin normallaşmasına hazır olduğunu bildirib.

İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir-Abdullahian dəvəti qəbul edib İrana səfər etdiyi üçün nazir Ceyhun Bayramova təşəkkür edib. O, iki ölkənin dövlət başçılarının görüşündə əldə olunan nailiyyətləri, imzalanan sənədləri məmnunluqla qeyd edib. Azərbaycanın İranın xarici siyasətində önəmli yer tutduğunu bildirən nazir Hüseyn Əmir-Abdullahian iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat, ticarət, nəqliyyat, energetika sahələrində əməkdaşlığın uğurla davam etdirildiyini vurğulayıb.

Nazir Hüseyn Əmir-Abdullahian həmçinin İran tərəfinin "İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında anlaşma memorandumu"nun icrasında qərarlı olduğunu ifadə edib.

Tərəflər həmçinin çoxtərəfli formatlarda əməkdaşlıq, regional məsələlər və digər qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

# Erməni nümayəndə heyətinin ATƏT PA-dakı bütün cəhdləri iflasa uğradı

## "Dağlıq Qarabağ münaqişəsi və Minsk qrupunun" "dirçəldilməsi" və erməni terrorçularının dərhal azad olunması tələbi ATƏT PA-da rədd edilib

Xəbər verildiyi kimi, Böyük Britaniyanın Birminqem şəhərində ATƏT PA-nın İllik Sessiyası keçirilir. İyulun 6-dək davam edəcək sessiyada Azərbaycan nümayəndə heyəti iştirak edir.

İllik Sessiyada erməni nümayəndə heyəti və ermənipərəst isveçli deputat Bjorn Soder tərəfindən müvafiq olaraq ATƏT PA-nın Siyasi məsələlər və təhlükəsilik üzrə ümumi komitəsi və Demokratiya, insan haqları və humanitar məsələlər üzrə ümumi komitəsinin qətnamə layihələrinə ölkəmizin maraqlarına zidd olan dəyişiklik irəli sürmüşlər.

Belə ki, erməni nümayəndə heyətinin rəhbəri Eduard Ağacanyan tərəfindən irəli sürülmüş Siyasi məsələlər və təhlükəsilik üzrə ümumi komitəsinin qətnamə layihəsinə "Dağlıq Qarabağ münaqişəsi"ni və "ATƏT-in Minsk Qrupu"nu daxil etmək məqsədilə hazırladığı dəyişiklik müzakirəyə çıxarılıb.

Qeyd olunan düzəlişin müzakirəsi zamanı Azərbaycan nümyəndə heyətinin rəhbəri Azay Quliyev erməni nümayəndə heyətinin təklifinə tutarlı arqumentlərlə cavab verərək assambleyanı müharibədən sonra mövcud olan reallığa zidd olan dəyişikliyi qəbul etməməyə çağırıb. Ermənistanın təklifi səsə qoyulub, 27 səs əleyhinə, 12 səs lehinə olmaqla düzəliş rədd edilib.

ATƏT PA-nın Siyasi məsələlər və təhlükəsilik üzrə ümumi komitəsinin iclasının davamında ermənipərəst isveçli deputat Bjorn Soderin "saxlanılan erməni hərbçilərinin dərhal azad olunmasını Azərbaycandan tələb edən" təklifi, eləcə də mədəni irsin qorunması naminə UNESCO texniki missiyasının qəbul edilməsinə yönəlik çağırışı müzakirəyə çıxarılıb.

İsveçli deputatın təklifinə qarşı çıxan Azay Quliyev söz alaraq həbs edilmiş erməni hərbçilərinin müvafiq qanunvericiliyə uyğun olaraq cəzalandırıldığını, bununla bağlı Avropa İnsan Haqları Məhkəməsinin və Beynəlxalq Ədalət Məhkəməsinin müvafiq qərarlarının olduğunu, UNESCO-nun fəaliyyətinə ermənilər tərəfində süni əngəllərin yaradıldığını əsas gətirərək, ATƏT PA tərəfindən bu bəndin qəbul edilməsinin yanlış olacağını vurğuladı.

Soderin təklifi səsə qoyulub, 24 əleyhinə 12 lehinə olmaqla rədd edilib.

Ermənistanın Azərbaycana qarşı qətnamə bəndinin qəbul edilməsi ilə bağlı etdiyi üçüncü cəhd ATƏT PA-nın Demokratiya, insan haqları və humanitar məsələlər üzrə ümumi komitəsinin qətnamə layihəsinin müzakirəsi zamanı edilib.

Bu dəfə Ermənistan nümayəndə heyətinin üzvü Mariya Karapetyanın yenə Dağlıq Qarabağa və münaqişənin mövcudluğuna istinad edən, erməni hərbçilərinin azad olunmasını özündə əks etdirən təklifi müzakirəyə çıxarılıb.

Ermənilərin təklifinə qarşı çıxan Azərbaycan nümyəndə heyətinin rəhbəri Azay Quliyev bu təklifin birtərəfli və əsassız olduğunu, hazırda Avropa Birliyi tərəfindən aparılan üçtərəfli Brüssel danışıqlarında zəruri məsələlərin müzakirə edildiyini, bu kimi mövzuların ATƏT PA-nın qətnaməsinə salınmasının zərərli olacağını əsas gətirərək assambleya üzvlərini bu təklifi qəbul etməməyə çağırıb.

Karapetyan tərəfindən hazırlanan düzəliş səsə qoyuldu, 18 səs əleyhinə, 11 lehinə olmaqla rədd edilib.

Beləliklə, Böyük Britaniyanın Birminqem şəhərində işini davam etdirən ATƏT PA-nın İllik Sessiyasında Ermənistan tərəfindən Azərbaycan əleyhinə hazırlanan və təqdim olunan bütün düzəlişlərin və təkliflərin qarşısı qətiyyətlə alınıb.

*"Azərbaycan"*

# "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1300) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci və 2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 1.** Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin gəlirləri 29 197 800,0 min manat, xərcləri 32 303 800,0 min manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 28 167 624,0 min manat, yerli gəlirləri 1 030 176,0 min manat, mərkəzləşdirilmiş xərcləri 31 233 684,0 min manat, yerli xərcləri 1 070 116,0 min manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| | Gəlirlərin mənbələri | Məbləğ (min manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 485 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 5 290 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 46 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 236 045,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 5 718 700,0 |
| 2.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 3 085 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 235 000,0 |
| 2.7. | Aksizlər | 1 276 846,0 |
| 2.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 170 000,0 |
| 2.8. | Yol vergisi | 126 500,0 |
| 2.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 50 000,0 |
| 2.9. | Mədən vergisi | 142 023,0 |
| 2.10. | Gömrük rüsumları | 1 300 000,0 |
| 2.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 95 386,0 |
| 2.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 1 800,0 |
| 2.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 106 500,0 |
| 2.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 11 517 500,0 |
| 2.15. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 16 000,0 |
| 2.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 9 000,0 |
| 2.17. | Dövlət rüsumu | 363 500,0 |
| 2.18. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 21 000,0 |
| 2.19. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 834 000,0 |
| 2.20. | 2022-ci il yanvarın1-nə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarının vəsaitinin qalığı | 183 300,0 |
| 2.21. | Sair daxilolmalar | 193 700,0 |

2. 3-cü maddə üzrə:

2.1. 3.1-ci maddədə "309 865,0" rəqəmləri "662 165,0" rəqəmləri ilə əvəz edilsin;

2.2. 3.1.1-ci maddədə "116 500,0" rəqəmləri "126 500,0" rəqəmləri ilə əvəz edilsin;

2.3. 3.1.3-cü maddədə "50 000,0" rəqəmləri "60 000,0" rəqəmləri ilə əvəz edilsin;

2.4. 3.1.4-cü maddədə "89 500,0" rəqəmləri "238 500,0" rəqəmləri ilə əvəz edilsin;

2.5. aşağıdakı məzmunda 3.1.8-ci maddə əlavə edilsin:

| | | |
|---|---|---|
| 3.1.8. | 2022-ci il yanvarın 1-nə müvafiq icra hakimiyyəti orqanının yaratdığı məqsədli büdcə fondlarının vəsaitinin qalığı | 183 300,0 |

3. 7-ci və 9-cu maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 7.** Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 7.1. | Ümumi dövlət xidmətləri | 4 355 310 544,0 |
| 7.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 481 804 728,0 |
| 7.1.2. | beynəlxalq münasibətlər | 370 750 000,0 |
| 7.1.3. | xarici yardımlar | 12 000 000,0 |
| 7.1.4. | elm | 204 937 485,0 |
| 7.1.5. | seçkilərin keçirilməsi və statistika tədbirləri | 29 638 331,0 |
| 7.1.6. | büdcələrarası transfertlər | 464 180 000,0 |
| 1.9.2 | Baytarlıq | 47,535,447.0 | 47,535,447.0 | |
| 1.9.2.1 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 47,535,447.0 | 47,535,447.0 | |
| 1.9.3 | Meliorasiya | 459,939,640.0 | 459,939,640.0 | |
| 1.9.3.1 | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 459,939,640.0 | 459,939,640.0 | |
| 1.9.4 | Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 12,364,000.0 | 12,364,000.0 | |
| 1.9.4.1 | Kənd təsərrüfatı sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 12,364,000.0 | 12,364,000.0 | |
| 1.10 | Ətraf mühitin mühafizəsi | 292,153,686.0 | 83,576,940.0 | 208,576,746.0 |
| 1.10.1 | Bioloji zənginliyin qorunması | 8,180,796.0 | 8,180,796.0 | |
| 1.10.1.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 429,984.0 | 429,984.0 | |
| 1.10.1.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 7,750,812.0 | 7,750,812.0 | |
| 1.10.2 | Hidrometeorologiya tədbirləri | 10,966,058.0 | 10,966,058.0 | |
| 1.10.2.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 732,397.0 | 732,397.0 | |
| 1.10.2.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti | 10,233,661.0 | 10,233,661.0 | |
| 1.10.3 | Meşə təsərrüfatı | 15,467,857.0 | 15,467,857.0 | |
| 1.10.3.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti | 15,467,857.0 | 15,467,857.0 | |
| 1.10.4 | Balıqçılıq və ovçuluq | 1,443,272.0 | 1,443,272.0 | |
| 1.10.4.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 1,443,272.0 | 1,443,272.0 | |
| 1.10.5 | Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 255,545,703.0 | 46,968,957.0 | 208,576,746.0 |
| 1.10.5.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 9,158,930.0 | 9,158,930.0 | |
| 1.10.5.2 | "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə verilən subsidiya | 33,035,200.0 | 33,035,200.0 | |
| 1.10.5.3 | Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı | 4,325,000.0 | 4,325,000.0 | |
| 1.10.5.4 | Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 449,827.0 | 449,827.0 | |
| 1.10.5.5 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 208,576,746.0 | | 208,576,746.0 |
| 1.10.6 | Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 550,000.0 | 550,000.0 | |
| 1.10.6.1 | Ətraf mühitin mühafizəsi sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 550,000.0 | 550,000.0 | |
| 1.11 | İqtisadi fəaliyyət | 7,067,986,323.0 | 7,023,763,787.0 | 44,222,536.0 |
| 1.11.1 | Nəqliyyat və rabitə | 217,348,340.0 | 173,125,804.0 | 44,222,536.0 |
| 1.11.1.1 | "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 10,010,000.0 | 10,010,000.0 | |
| 1.11.1.2 | "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 51,916,000.0 | 51,916,000.0 | |
| 1.11.1.3 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 1,176,500.0 | 1,176,500.0 | |
| 1.11.1.4 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 12,898,020.0 | 12,898,020.0 | |
| 1.11.1.5 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1,300,000.0 | 1,300,000.0 | |
| 1.11.1.6 | "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxs (nizamnamə kapitalının artırılması yolu ilə borc öhdəliklərinin tənzimlənməsi) | 23,000,000.0 | 23,000,000.0 | |
| 1.11.1.7 | Nəqliyyat və rabitə sahələrində digər tədbirlərin maliyyələşdirilməsi | 29,000,000.0 | 29,000,000.0 | |
| 1.11.1.8 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 43,825,284.0 | 43,825,284.0 | |
| 1.11.1.9 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 44,222,536.0 | | 44,222,536.0 |
| 1.11.2 | İqtisadi və kommersiya fəaliyyəti | 56,070,992.0 | 56,070,992.0 | |
| 1.11.2.1 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 56,070,992.0 | 56,070,992.0 | |
| 1.11.3 | Tikinti və şəhərsalma | 5,972,270,500.0 | 5,972,270,500.0 | |
| 1.11.3.1 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1,370,500.0 | 1,370,500.0 | |
| 1.11.3.2 | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 3,286,400,000.0 | 3,286,400,000.0 | |
| 1.11.3.3 | İşğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası | 2,670,000,000.0 | 2,670,000,000.0 | |
| 1.11.3.4 | Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması | 500,000.0 | 500,000.0 | |
| 1.11.3.5 | Vətən müharibəsi nəticəsində zərərçəkmiş yaşayış və qeyri-yaşayış sahələrinin bərpası və yenidən qurulması | 14,000,000.0 | 14,000,000.0 | |
| 1.11.4 | Geodeziya və faydalı qazıntılar | 8,175,975.0 | 8,175,975.0 | |
| 1.11.4.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 8,175,975.0 | 8,175,975.0 | |
| 1.11.5 | Yanacaq və enerji kompleksi | 1,900,000.0 | 1,900,000.0 | |
| 1.11.5.1 | Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi | 1,900,000.0 | 1,900,000.0 | |
| 1.11.6 | İqtisadi fəaliyyətlə bağlı digər xidmətlər | 812,220,516.0 | 812,220,516.0 | |
| 1.11.6.1 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 54,091,668.0 | 54,091,668.0 | |
| 1.11.6.1.1 | Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması | 5,800,000.0 | 5,800,000.0 | |
| 1.11.6.1.2 | Yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların və lisenziya blanklarının çap edilməsi | 48,291,668.0 | 48,291,668.0 | |
| 1.11.6.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (Böyükşor gölünün mühafizəsi və ətrafının abadlaşdırılması) | 800,000.0 | 800,000.0 | |
| 1.11.6.3 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması) | 600,600.0 | 600,600.0 | |
| 1.11.6.4 | Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması | 28,500,000.0 | 28,500,000.0 | |
| 1.11.6.5 | Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər | 11,300,000.0 | 11,300,000.0 | |
| 1.11.6.6 | Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu | 100,000,000.0 | 100,000,000.0 | |
| 1.11.6.6.1 | Nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) | 95,000,000.0 | 95,000,000.0 | |
| 1.11.6.6.2 | Sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə hesablanmış faizlərə görə subsidiyanın maliyyələşdirilməsi | 5,000,000.0 | 5,000,000.0 | |
| 1.11.6.7 | Azərbaycan İnvestisiya Holdinqi | 13,000,000.0 | 13,000,000.0 | |
| 1.11.6.8 | Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumu | 4,700,000.0 | 4,700,000.0 | |
| 1.11.6.9 | İqtisadi fəaliyyət sahələri üzrə maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 1,400,000.0 | 1,400,000.0 | |
| 1.11.6.10 | Xarici qrantlar hesabına həyata keçirilən layihələr | 110,000.0 | 110,000.0 | |
| 1.11.6.11 | Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin nizamnamə kapitalının artırılması (Heydər Əliyev adına Neft Emalı Zavodunun yenidən qurulması və modernləşdirilməsi) | 214,000,000.0 | 214,000,000.0 | |
| 1.11.6.12 | Bir sıra dövlət müəssisələrində islahatlar aparılması ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması və güzəştlərə dair reyestrlərin yaradılması ilə bağlı xərclər | 5,000,000.0 | 5,000,000.0 | |
| 1.11.6.13 | İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı | 140,000,000.0 | 140,000,000.0 | |
| 1.11.6.14 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 66,898,248.0 | 66,898,248.0 | |
| 1.11.6.15 | Dövlət zəmanəti verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması və problemli kreditlərin həlli ilə bağlı maliyyə təminatı | 8,820,000.0 | 8,820,000.0 | |
| 1.11.6.16 | "Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxs | 163,000,000.0 | 163,000,000.0 | |
| 1.12 | Əsas bölmələrə aid edilməyən xərclər | 1,964,128,777.0 | 1,939,347,108.0 | 24,781,669.0 |
| 1.12.1 | Ehtiyat fondları | 628,000,000.0 | 628,000,000.0 | |
| 1.12.1.1 | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 518,000,000.0 | 518,000,000.0 | |
| 1.12.1.2 | Dövlət büdcəsinin ehtiyat fondu | 110,000,000.0 | 110,000,000.0 | |
| 1.12.2 | Məqsədli büdcə fondları | 662,165,000.0 | 662,165,000.0 | |
| 1.12.2.1 | "Avtomobil yolları" Məqsədli Büdcə Fondu | 650,000,000.0 | 650,000,000.0 | |
| 1.12.2.2 | Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu | 3,700,000.0 | 3,700,000.0 | |
| 1.12.2.3 | Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu | 5,800,000.0 | 5,800,000.0 | |
| 1.12.2.4 | Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu | 1,200,000.0 | 1,200,000.0 | |
| 1.12.2.5 | Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları | 1,350,000.0 | 1,350,000.0 | |
| 1.12.2.6 | Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu | 115,000.0 | 115,000.0 | |
| 1.12.3 | Valyuta konvertasiyası | 4,000,000.0 | 4,000,000.0 | |
| 1.12.3.1 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 4,000,000.0 | 4,000,000.0 | |
| 1.12.4 | Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 669,963,777.0 | 645,182,108.0 | 24,781,669.0 |
| 1.12.4.1 | Dövlət ehtiyatlarının yaradılması və təşkili | 42,316,300.0 | 42,316,300.0 | |
| 1.12.4.2 | Fövqəladə halların nəticələrinin aradan qaldırılması | 20,000,000.0 | 20,000,000.0 | |
| 1.12.4.3 | Ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 11,946,580.0 | | 11,946,580.0 |
| 1.12.4.4 | Sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər | 595,700,897.0 | 582,865,808.0 | 12,835,089.0 |
| 1.12.4.4.1 | İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin Məhkəmənin qərarlarının icrası, dövlət təltiflərinin hazırlanması | 3,989,074.0 | 3,989,074.0 | |
| 1.12.4.4.2 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 15,809,300.0 | 15,809,300.0 | |
| 1.12.4.4.2.1 | Xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi | 5,000,000.0 | 5,000,000.0 | |
| 1.12.4.4.2.2 | İşlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması | 10,745,000.0 | 10,745,000.0 | |
| 1.12.4.4.2.3 | Beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi | 64,300.0 | 64,300.0 | |
| 1.12.4.4.3 | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə əməkhaqqı və digər sosial ödənişlərin artımı ilə bağlı xərclər | 3,044,934.0 | 3,044,934.0 | |
| 1.12.4.4.4 | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 67,120,500.0 | 67,120,500.0 | |
| 1.12.4.4.5 | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 20,000,000.0 | 20,000,000.0 | |
| 1.12.4.4.6 | Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər | 9,000,000.0 | 9,000,000.0 | |
| 1.12.4.4.7 | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 3,402,000.0 | 3,402,000.0 | |
| 1.12.4.4.8 | Mediasiya Şurası | 500,000.0 | 500,000.0 | |
| 1.12.4.4.9 | Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 30,000,000.0 | 30,000,000.0 | |
| 1.12.4.4.10 | İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması | 10,000,000.0 | 10,000,000.0 | |
| 1.12.4.4.11 | Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 420,000,000.0 | 420,000,000.0 | |
| 1.12.4.4.12 | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 12,835,089.0 | | 12,835,089.0 |

1.2. 3.5-ci bəndə "1.8.3.2-ci," sözlərindən sonra "1.11.3.5-ci," sözləri əlavə edilsin;

1.3. 16.1-ci bəndə "2.14-cü," sözlərindən sonra "2.20-ci," sözləri, "3.1-ci," sözlərindən sonra "3.1.8-ci," sözləri əlavə edilsin;

1.4. 16.5-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 16.6-cı bənd əlavə edilsin:

"həmin Qanunun 2.20-ci və 3.1.8-ci maddələrində "məqsədli büdcə fondu" dedikdə "Avtomobil yolları" Məqsədli Büdcə Fondu və Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu nəzərdə tutulur.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 562-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyul 2022-ci il*

# Azərbaycanın baş tikinti meydanı

## İlham Əliyev bir güllə atılmadan düşməndən geri aldığı Kəlbəcəri dünyanın ən möhtəşəm məkanlarından birinə çevirir

*Yolumuz yenə zirvələrədir...*
*İllərlə həsrətini çəkdiyimiz bənzərsiz mənzərəsi, sərin yaylaqları, buz kimi bulaqları, başıqarlı dağları və hər zaman qonaqlı-qaralı olan Kəlbəcərə gedirik...*
*Hər tərəfi yamyaşıl örpəyə bürünən dağların ecazkar mənzərəsinə tamaşa edə-edə Hacıkənddən, Toğanadan keçib Azərbaycanın ən strateji nöqtələrindən sayılan Murovdağ silsiləsinə, 3260 metr hündürlükdəki məşhur Ömər aşırımına çatırıq. Bura sanki yerlə göyün birləşdiyi məkandır. Adama elə gəlir ki, əlini bir anlıq havaya qaldırsan buludlara toxunacaqsan. Əsrarəngiz mənzərəyə tamaşa etməkdən doymaq olmur və baxdıqca gözünü çəkmək istəmədiyin dumana bürünüb dalğalanan dağlar insanın qəlbini riqqətə gətirir. Aşırımın bəri üzü Göygölə, qarşıdakı dağlar isə Kəlbəcərə aiddir...*















### Dünyanın ən uzun tunellərindən biri

Bu bir həqiqətdir ki, hazırda Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da böyük tikinti-quruculuq işləri həyata keçirilməkdədir. Müharibədən ötən müddət ərzində bu iki iqtisadi rayonun müxtəlif ərazilərində müxtəlif infrastrukturlar yaradılıb və böyük qayıdışa start verilməsi üçün mühüm işlər görülüb və hazırda da proses sürətlə davam etməkdədir.

Amma etiraf etməliyik ki, görülən işlərin miqyasına, praktik çeşidliyinə görə Kəlbəcərdə həyata keçirilən tikinti-quruculuq işləri xüsusilə fərqlənir. Bu, xüsusən də yolların, tunellərin, körpülərin, elektrik enerjisi, su xətləri, Kiçik Su-Elektrik Stansiyaları, su anbarları, sanatoriya-kurort mərkəzlərindən tutmuş hərbi sahəyədək yeni tikilən infrastrukturlarda özünü göstərir.

İlk olaraq bizləri işğaldan azad edilən ərazilərə aparan yollardan başlayaq. Çünki bu ərazilərdə hərəkətin tənzimlənməsi üçün ilk növbədə yolların yenidən qurulması, körpü və tunellərin tikintisi xüsusi əhəmiyyət daşıyır. Həm bərpa-quruculuq işlərinin intensivləşdirilməsi, həm də tranzit baxımdan yolların inşası təxirə salınmadan həyata keçirilir. Hazırda dövlət büdcəsindən ayrılmış vəsait hesabına işğaldan azad edilmiş ərazilərimizdə 15 avtomobil yolunun tikinti işləri davam etdirilir. Həmin layihələrin və xüsusən də ən mühüm tunellərin tikildiyi ərazi məhz Kəlbəcər və Laçına gedən yolların üzərindədir.

Burada mühüm layihələrdən biri də Göygöllə Kəlbəcəri birləşdirən və uzunluğu 81 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu yoludur. Avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla, 2-4 hərəkət zolaqlı olmaqla, 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Layihənin 16-cı kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artır. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından 11.6 kilometrlik tunelin tikintisi məqsədəuyğun hesab edilib.

Ötən il avqustun 16-da İlham Əliyevin təməlini qoyduğu bu tunelin inşası davam etdirilir. Artıq tuneldə gediş və gəliş istiqaməti üzrə 2,1 kilometr uzunluğunda qazma işləri aparılıb. Tunel müvəqqəti havalandırma sistemi ilə təmin edilib. Piyadalar və avtomobillər üçün nəzərdə tutulan iki ehtiyat keçidin tikintisi yekunlaşıb.

Hazırda yolboyu torpaq yatağının, həmçinin zəruri yerlərdə suötürücülərin tikintisi davam edir. İki hissədə mövcud kanalların köçürülməsi, bəzi ərazilərdə isə suötürücülərin inşası tamamlanıb. Yeni su kanalının tikintisi davam etdirilir.

Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi layihəsi çərçivəsində Murovdağ tunelindən əlavə, daha üç tunelin inşası nəzərdə tutulur. Uzunluğu 542, eni 12 metr olan birinci və uzunluğu 607 metr olan ikinci tuneldə tikinti işlərinə başlanılıb. Artıq birinci tuneldə üst qatda qazma işləri icra olunaraq tuneldaxili hərəkət təmin edilib. İkinci tuneldə isə üst qatda qazma işləri tamamlanmaq üzrədir.

Tikintisi 2025-ci ilədək yekunlaşdırılması nəzərdə tutulan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir. Bu yol rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, Kəlbəcər şəhərinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişi təmin edəcək.

Kəlbəcər-Laçın avtomobil yolunun da inşası davam edir. Uzunluğu 72,8 kilometr olan bu yolun hərəkət hissəsinin eni 9-16 metrdir. Hazırda yolun müəyyən hissələrində qazma-dolğu işləri icra olunur, yeni torpaq yatağı inşa edilir. Bundan başqa, düzbucaqlı və dairəvi suötürücü boruların, həmçinin su kanallarının tikintisi, drenaj işləri və daş divarın inşası aparılır. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq. Yol üzərində 3 tunelin tikintisi aparılır. Tunellərin ümumi uzunluğu 9450 metrdir.

Göründüyü kimi, Kəlbəcər və Laçına gedən yollarda 10-dan artıq tunel tikilir. Murovdağın altından çəkilən 12 kilometrlik tunel isə dünyada ən uzun tunellərdən biri sayılacaq. Bu yollar və tunellər tikilib hazır olduqda Kəlbəcər və Laçın rayonları arasında əlaqələr möhkəmlənəcək, Kəlbəcər-Göygöl-Gəncə istiqamətində gediş-gəliş daha da rahat olacaq.

Həm Şərqi Zəngəzurda, həm də Qarabağda ancaq yol təsərrüfatına aid olan genişmiqyaslı işlər Azərbaycanın iqtisadi qüdrətinin, bu sahədəki təcrübəsinin göstəricisidir.

### Çətin relyefdə rekord sayılacaq müddətdə tikilən elektrik stansiyaları

Yolboyu yanından ötdüyümüz müasir yüksəkgərginlikli elektrik xətləri isə Kəlbəcərə elektrik enerjisinin verilməsini, orada çalışan müəssisələrin enerji təminatının həll edildiyini göstərir.

Vətən müharibəsindən sonra İlham Əliyev işğaldan azad edilmiş ərazilərin ən qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, bu ərazilərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məsələsinə xüsusi diqqətlə yanaşır. Bunun nəticəsidir ki, işğaldan azad edilmiş bütün yaşayış məntəqələrində, o cümlədən Kəlbəcər rayonunda bu istiqamətdə genişmiqyaslı işlər həyata keçirilib. 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının qısa müddətə inşası həyata keçirilən layihələrdən biridir. Ötən ilin avqustunda İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə bu yarımstansiyanın açılışı olub.

Həmçinin Kəlbəcərin Qamışlı kəndi ərazisində müasir avadanlıqlarla təchiz olunmuş yeni yarımstansiyada 80 meqavat gücündə transformatorlar quraşdırılıb. Yarımstansiyada 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular yaradılıb. "Kəlbəcər" yarımstansiyası məsafədən idarəolunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulub və bunun üçün yeni idarəetmə binası tikilib. Burada ən yeni rəqəmsal texnologiyalardan istifadə edilib.

Bu yüksəkliklərə elektrik xətlərinin çəkilməsi o qədər də asan məsələ deyil. Yəni dağların arası, zirvəsi ilə elektrik dirəklərinin basdırılması, xətlərin qoşulması yüksək mühəndislik bacarığının bəhrəsidir. Yəni yüksək texnoloji imkanların istifadə olunduğu bu layihə ilin bütün fəsillərində çətin relyef şəraitində, keçilməz dağ silsilələri yarılaraq icra edilib. Belə qısa vaxtda icra edilən və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünün, böyük potensialının göstəricisidir.

Bəlli olur ki, bu istiqamətə ilk elektrik xətti Daşkəsəndən çəkilib.

Prezident İlham Əliyevin tapşırığına əsasən, ən çətin dağlıq, sıldırım relyefdə, qarlı, şaxtalı, tufanlı havada, yolsuzluq şəraitində, buzlu, sürüşkən ərazidə çəkilən 110 kV-luq ikidövrəli Daşkəsən-Kəlbəcər xətti və yarımstansiya üçün ağır texnika, avadanlıq da daxil olmaqla, bütün yük havanın necəliyinə baxmayaraq, Ağdərə və Murov yolundan daşınıb. 110 kV-luq xəttin 20 km məsafəsi məhz 3400 metrə qədər xüsusi buzlaşmış ərazidən keçir. Odur ki, 70 km uzunluqda xəttin 20 km məsafəsində daha iri qabaritli 220 kV-luq dayaqlardan istifadə edilib. İş fasiləsiz, növbəlilik prinsipi ilə aparılıb.

Cəmi altı ay ərzində inşa edilən "Kəlbəcər" yarımstansiyası məsafədən idarə olunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulmaqla tam rəqəmsallaşdırılıb. Yarımstansiya və elektrik verilişi xəttinin tikintisinin çətin coğrafi şəraitdə aparılmasına baxmayaraq, işlər rekord sayılacaq müddət ərzində yekunlaşdırılıb.

### Kəlbəcərdə istismara verilən ilk istehsal mənbəyi

Hazırda Kəlbəcərdə 5 ədəd kiçik su-elektrik stansiyası yenidən qurulur. Barbar ermənilər rayonu təhvil verərkən bütün digər infrastrukturlar kimi su-elektrik stansiyalarını da sıradan çıxarıblar.

Müharibədən dərhal sonra tikintisinə başlanılan "Kəlbəcər-1" kiçik su-elektrik stansiyası artıq fəaliyyətə başlayıb. İyunun 26-da - Silahlı Qüvvələr Günündə Kəlbəcər və Laçına səfəri zamanı İlham Əliyev istehsal mənbəyinin açılışını edib. Bu elektrik stansiyası işğaldan azad edildikdən sonra Kəlbəcərdə tikilərək istismara verilən ilk istehsal mənbəyidir.

Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Kəlbəcər-1" KSES-də maşın zalı tikilib, yeni aqreqat, generator, idarəetmə panelləri və transformatorlar quraşdırılıb. Suyu hidroaqreqata ötürən dağıdılmış plastik su borusu diametri 1,8 metr olan metal borularla əvəz edilib. Burada 110/6 kilovoltluq yarımstansiya tikilib.

"Kəlbəcər-1" KSES Azərbaycanın ümumi enerji sisteminə qoşulub. Rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması əlçatan olan yeni stansiyanı Kəlbəcərlə yanaşı, Bakıdan, Baş İdarəetmə Mərkəzindən də nəzarət və idarə etmək mümkündü.

Məsafədən idarə olunan KSES-lər demək olar ki, personalsız işlədilir. Çünki stansiyaların idarəetmə sistemi tam avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılıb ki, nəticə etibarı ilə enerjisistemdə ilk dəfə süni intellekt tətbiq olunmaqla, personalsız idarəetmə yaradılıb. Bu isə istehsal olunan elektrik enerjisinin maya dəyərinin daha da aşağı düşməsinə səbəb olur.

Hazırda Kəlbəcərdə "AzərEnerji" tərəfindən ümumi gücü 27 meqavat olan 5 kiçik su-elektrik stansiyası tikilir. Bunlar 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq", 3,4 meqavat gücündə "Meydan" kiçik su elektrik stansiyalarıdır.

Kiçik su-elektrik stansiyalarında ümumilikdə 9 hidroaqreqat fəaliyyət göstərəcək. Bunun üçün ağır tonnajlı texnika, avadanlıqlar, mal-materialın daşınması təmin edilib və bu iş davam etdirilir. O cümlədən suyu hidroaqreqata ötürən derivasiya boruları quraşdırılır, stansiyaların enerjisistemə inteqrasiyası üçün 110 və 35 kV-luq xətlər çəkilir. İşlərin böyük hissəsinin görüldüyü bu 5 stansiya rəqəmsal qaydada mərkəzi SCADA Dispetçer İdarəetmə Sisteminə inteqrasiya ediləcək. Açılıb-qoşulma, intellektual tənzimləmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyaların idarəedilməsi Kəlbəcərdən olduğu kimi, Bakıdan da həyata keçiriləcək.

Kəlbəcərdə 5 yerdə yeni tikilən elektrik stansiyalarında il ərzində ümumilikdə 100 milyon kilovatsaata yaxın ekoloji cəhətdən təmiz enerji istehsal olunacaq. Bu isə 50 milyon kubmetr təbii qaza və təbii qazın ölkədaxili satış qiymətləri nəzərə alınmaqla, 8,3 milyon manat maliyyə vəsaitinə qənaət deməkdir.

İstər hazırda 5 yerdə tikilən, istərsə də istismara verilən "Kəlbəcər-1" KSES-lərin istismarı üçün əlavə işçi qüvvəsinə ehtiyac qalmayacaq və 110 kV-luq "Kəlbəcər" yarımstansiyasının iş başında olan personalı həm də qaydalaşdırılmış şəkildə yeni kiçik su-elektrik stansiyaların işinə də nəzarət edəcək.

Nəticədə Kəlbəcərdəki 7 enerji obyektində onlarca insanın işini cəmi 8 energetik görəcək və bununla da külli miqdarda vəsaitə qənaət olunacaq.

### Rəqəmsal İdarəetmə Mərkəzi, Laçının elektriklə təminatı

Kəlbəcər rayonu ərazisində xüsusi dövlət əhəmiyyətli obyektlərin və hərbi hissələrin elektrik enerjisi ilə təmin olunması istiqamətində genişmiqyaslı işlər davam etdirilir. Prezidentin Kəlbəcərə səfəri zamanı Rəqəmsal İdarəetmə Mərkəzinin təməlinin qoyulması da bu prosesin tərkib hissəsidir.

Laçın rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün ötən il istismara verilən "Kəlbəcər" yarımstansiyasından Laçın rayonunun Qorçu kəndinə 42 km məsafədə ikidövrəli olmaqla, 110 kilovoltluq yüksək gərginlikli ötürmə xətti çəkilir.

Bəzi yerlərdə 2200 metr yüksəklikdən, dağlıq, sıldırım qayalıq, çaylaq, sıx meşəlik və xüsusilə yolsuzluq şəraitində çəkilən ötürmə xəttinin trassası üzrə hər birinin çəkisi orta hesabla 10 ton, hündürlüyü 40 metr olan 250-yə qədər anker və aralıq dayaq basdırılır.

110 kilovoltluq xəttin üzərindəki ildırım ötürücü funksiyalı 24 damarlı fiber optik kabellə internet xətti çəkilir ki, bu da enerjisistemin idarəetməsində siqnalların etibarlı şəkildə ötürülməsini təmin edəcək.

Paralel olaraq Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1800 metr yüksəklikdə 110/35/10 kilovoltluq rəqəmsal yarımstansiya tikilir. Sistem əhəmiyyətli "Qorçu" yarımstansiyasında idarəetmə mərkəzi, açıq və qapalı paylayıcı qurğular yaradılır. Yarımstansiyanın ərazisində personal üçün yataqxana binası tikilir, onlar üçün lazımi şərait yaradılır. Qeyd edək ki, yarımstansiyanın ərazisinin seçilməsi, binasının memarlıq üslubu Əlaqələndirmə Qərargahının Şəhərsalma Məsələləri üzrə İşçi qrupu ilə, o cümlədən Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılıb. Yarımstansiyanın yaxınlığında hava limanı tikilir və Qorçu kəndi mərkəz olmaqla, burada 7 kəndi birləşdirən yaşayış massivinin tikintisi planlaşdırılır.

Yeni yarımstansiya Laçında tikiləcək hava limanını, rayon ərazisindəki hərbi hissələri, gələcəkdə bölgədə tikiləcək bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

### Kəlbəcərdə fasiləsiz xidmət təşkil olunub

Kəlbəcərin ecazkarlığı, özünəməxsusluğu dağlarından axan minerallı, isti, kükürdlü, turşsulu bulaqlarında da özünü göstərir. Hansı yüksəkliyin yanından keçirsənsə, orada mütləq bulaq qaynadığının şahidi olursan. İlin bu isti yayında da əlini bulaqların suyunun altında bir neçə dəqiqə saxlamaq kifayətdir ki, barmaqların donsun. Su o qədər soyuq olur ki, onu yalnız qurtum-qurtum qəbul etmək mümkün olur.

Bulaq suları ilə yanaşı, rayonun daimi içməli su təchizatı məsələsi də həll olunub. Prezidentin tapşırıqlarına uyğun olaraq "Azərsu" ASC işğaldan azad edilmiş ərazilərdə su təchizatı sistemlərinin bərpası və yenidən qurulması istiqamətində işləri davam etdirərək Kəlbəcər rayonunda da təxirəsalınmaz tədbirlər görüb. Belə ki, şəhərə suyun verilməsi, hərbi və mülki təyinatlı obyektlərin su təchizatı təmin edilib.

Rayon ərazisində xidməti vəzifələrini yerinə yetirən şəxsi heyətin, eləcə də tikinti-quraşdırma işlərinə cəlb olunmuş mülki əhalinin dayanıqlı içməli su təminatı məqsədilə Kəlbəcərdə fasiləsiz xidmət təşkil olunub, su mənbələri, magistral kəmərlər və anbarlarda lazımi işlər görülür.

Kəlbəcərdə içməli su mənbələri işğal dövründə istifadəyə yararsız vəziyyətə salındığından qısa müddətdə Zivel və Qaraxaç çaylarının birləşdiyi nöqtədə suqəbuledici qurğular quraşdırılıb və içməli su mənbəyi kimi istifadəsinə başlanılıb. Su mənbəyindən Kəlbəcər şəhərinə çəkilmiş 27 km uzunluğunda 220 mm diametrli polad magistral su kəmərinin 96 nöqtəsində qəzalı hissələr təmir edilib və şəhərə suyun verilməsi təmin olunub. "Azərsu" ASC-nin 7 nömrəli Regional Sukanal İdarəsinin əməkdaşları tərəfindən ötən müddətdə ümumi tutumu 116 kubmetr olan 4 su anbarı yuyularaq dezinfeksiya edilib. Kəlbəcər şəhərində içməli su şəbəkəsinin qəzalı hissələrində təmir-bərpa işləri görülüb. Su təchizatı sistemində aparılan bərpa işlərindən sonra ərazidəki mülki və hərbi obyektlər dayanıqlı içməli su ilə təmin olunub. İndiyədək Kəlbəcər şəhərində 28 hərbi və mülki obyekt, 40-dək fərdi yaşayış evi içməli su ilə təmin edilib.

Kəlbəcər rayonunda xidmətin keyfiyyətinin yüksəldilməsi və işçilərin əmək şəraitinin yaxşılaşdırılması məqsədilə yararsız tikililərdən biri təmir olunaraq istifadəyə verilib. Suyun daimi olması üçün 25 tonluq çən, 16 və 50 kubmetrlik 2 anbar yaradılıb. Su bu sistemlərdən paylayıcıya daxil olduqdan sonra müxtəlif istiqamətlər üzrə paylanılır.

### Yaylaqlara aparılan 300 mindən çox heyvan, köçürülməsi planlaşdırılan 20 mindən çox arı ailəsi

İllər sonra Kəlbəcər yaylaqları da yenidən əziz qonaqlarını təntənə ilə qarşılayır. Artıq qoyunçuluq, maldarlıq və arıçılıq təsərrüfatları Kəlbəcər yaylaqlarına köçürülüb. 30-dan çox rayonun təsərrüfatı mövsüm ərzində Kəlbəcərin Sarıyer, Söyüdlü, Qoşdaş yaylaqlarına köç edib.

Ötən il pilot layihə çərçivəsində ilk dəfə Kəlbəcər yaylaqlarına 10 min başa yaxın xırda və iribuynuzlu heyvanın köçürülməsi təmin edilmişdi. Bu il isə yaylaqlara 300 mindən çox heyvan aparılıb. 2022-ci ildə azad olunmuş bütün ərazilərdən olan rayonların fermerlərinə öz qoyunçuluq təsərrüfatlarını Kəlbəcər və Laçın yaylaqlarına aparmağa icazə verilib. Hazırda Kəlbəcər və Laçın yaylaqlarına qoyunçuluq və arıçılıq təsərrüfatlarının köçürülməsi davam edir.

2021-ci ildə Kəlbəcər və Laçın yaylaqlarına 4500-dən artıq arı ailəsi köçürülüb. Bu ilin aprel ayının 29-da təlimləri başa vurmuş 13 arıçıdan ibarət 5 arıçılıq təsərrüfatı Kəlbəcər yaylaqlarına yola salınıb. Ümumilikdə isə bu il təkcə Kəlbəcər rayonu ərazisinə 20 mindən çox arı ailəsinin köçürülməsi planlaşdırılır.

İlham Əliyevin tapşırığı və şəxsi nəzarəti ilə işğaldan azad edilən torpaqlarımızdakı misli görünməmiş tikinti-quruculuq işləri onu deməyə əsas verir ki, tezliklə Qarabağ və Şərqi Zəngəzur dünyanın ən ecazkar məkanlarından birinə çevriləcək.

Kəlbəcər isə tam ayrı bir cənnətməkan olacaq. Başıqarlı ulu dağları, zümrüd meşələri, büllur bulaqları, ucsuz-bucaqsız çəmənləri, yamyaşıl yaylaqları, cəlbedici bənzərsiz gözəlliyi ilə hər kəsi valeh edəcək. Necə ki, bir günlük səfərimizdə bizə bəxş etdiyi unudulmaz xatirə, həyatımızın ən yaddaqalan anlarını yaşatdığı kimi...

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***
***Bakı-Kəlbəcər-Bakı***

# "Dəmir yumruq" Minsk qrupunu tarixin arxivinə atdı

## Azərbaycan döyüş meydanındakı uğurunu siyasi-diplomatik sferada layiqincə davam etdirir

**İkinci Qarabağ müharibəsini qələbə ilə başa vuran Azərbaycan dövləti hərb meydanındakı uğurunu hazırda siyasi-diplomatik sahədə davam etdirməkdədir.**

Bu istiqamətdə ən böyük nailiyyət odur ki, bütün dünya 44 günlük müharibənin nəticələrini tanıyır, regionda yaranmış yeni reallıqları bölüşür. Azərbaycanın yürütdüyü qətiyyətli siyasətin nəticəsi olaraq ermənipərəst mövqeyi ilə tanınan Qərb siyasi dairələrinin də müharibənin nəticələrini qəbul etməkdən başqa yolları qalmadı.

### Bakıya təzyiq etmək mümkün deyil

Xatırladaq ki, müharibənin başa çatmasından sonra da Azərbaycanın haqlı qələbəsinə qarşı çıxanlar olmuşdu. Yerli televiziyalara müsahibəsində Prezident İlham Əliyev bu barədə danışaraq bildirib ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin ilk bəyanatlarını yada salsaq onların yeni reallıqlardan tamamilə uzaq olduqlarını görərik. 2020-ci il noyabrın 25-də Fransa senatında Dağlıq Qarabağdakı separatçı rejimin tanınması ilə bağlı qətnamənin qəbulu da bu ölkənin Ermənistanın işğal siyasətinə dəstəyinin və Azərbaycana təzyiqinin bir forması idi. O cümlədən Avropa Parlamenti uydurma faktlar əsasında qətnamə qəbul etdi. Heç bir əsası olmayan, yalan və saxta iddialara söykənən qətnamənin qəbulu ilə AP bir daha təsdiq etdi ki, erməni təəssübkeşi olan siyasi mərkəzlər üçün alət rolunu oynamaqda davam edir.

Təbii ki, torpaqlarını döyüş yolu ilə azad etmiş Azərbaycanla təzyiq və təsir dilində danışmaq faydasız və yersizdir. Təsadüfi deyil ki, tarixi qələbəmizin memarı olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev müharibədən sonra da Ermənistanın müdafiəsinə qalxmış dövlətlərə və siyasi mərkəzlərə öz yerlərini göstərdi. Bir daha sübut olundu ki, Azərbaycanı öz yolundan heç bir qüvvə dayandıra bilməz və dövlətimiz istənilən vasitə ilə milli maraqlarını təmin etməyə qadirdir. "Nəticədə bu gün beynəlxalq təşkilatlar - BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB bu reallıqları tamamilə qəbul ediblər. Biz bunu həm formal mənada, həm də xalis ünsiyyətdə görürük. Üstəlik, mən beynəlxalq strukturların çoxsaylı rəhbərləri və dövlət başçıları ilə əlaqədə olarkən müşahidə edirəm, indi biz öz haqq işimizə qat-qat artıq dəstək görürük", - deyə Prezident İlham Əliyev bildirib.

Müharibədən sonra Azərbaycan siyasi-diplomatik istiqamətdə də fəal iş apardı. Diplomatik korpusun, respublikamıza gələn xarici qonaqların işğaldan azad olunmuş ərazilərə səfərləri təşkil olundu. Döyüşlərin başa çatmasından sonra dünya erməni vəhşiliyinə, Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqlarında törətdiyi cinayətlərə şahidlik etdi. Bütün bunlar Azərbaycanın haqlı mövqeyini bir daha dünyaya çatdırdı. Döyüşlərin başa çatmasından sonra həm də Qarabağ və Şərqi Zəngəzurda sürətli bərpa işlərinə başlanıldı. Beynəlxalq ictimaiyyət Azərbaycanın işğaldan azad etdiyi torpaqlarını yenidən qurmaq əzmini gördü. Möhtəşəm layihələrin həyata keçirilməsinə başlanılması və qısa müddətdə onların başa çatdırılması ilə dünya birliyi bir daha Azərbaycanın 44 günlük müharibədə haqlı tərəf olduğunu gördü.

### Minsk qrupu ilə bağlı spekulyasiyalar faydasızdır

Hazırda müharibədən sonra yaranmış yeni reallıqlar zəminində bütün proseslər Azərbaycanın milli və dövlət maraqlarına uyğun cərəyan edir. Bu prosesdə artıq müharibədən əvvəlki formatlara yer yoxdur. Məlumdur ki, müharibə günlərində də Minsk qrupunun həmsədrləri münaqişənin sülh yolu ilə həllinin vacibliyini vurğulayırdılar. Hansı ki o sülhü onlar heç vaxt təmin edə bilmədilər. Lakin sülhü əldə etmək üçün kifayət qədər aydın və konkret mexanizmlər var idi və bu, beynəlxalq hüquqla da dəqiq təsbit olunmuşdu. Ona görə də özünü doğrultmayan, qarşısında qoyulmuş vəzifəni icra edə bilməyən Minsk qrupu bundan sonrakı proseslərə heç bir müsbət töhfəsini verə bilməz.

Prezident İlham Əliyev həm IX Qlobal Bakı Forumunda, həm də Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında bir daha bu barədə danışaraq Minsk qrupunun fəaliyyətinə artıq ehtiyacın olmadığını bəyan edib. "Azərbaycan Qarabağ münaqişəsini həll etdikdən sonra Minsk qrupunun fəaliyyətinə artıq ehtiyac yoxdur. Hesab edirəm ki, hər kəs bunu anlayır. Xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra aydındır ki, Minsk qrupunun üç həmsədr ölkəsi bir araya gələ bilməz və biz bununla bağlı artıq mesajlar almışıq - bu qrupun həmsədrlik institutu fəaliyyət göstərməyəcək. Yəni Minsk qrupu funksiyasını itirib. Bunu yenidən dirçəltmək cəhdləri də səmərəsizdir. Düşünürəm ki, bunun ən yaxşı yolu Minsk qrupuna əlvida deməkdir. Təşəkkür edirik və əlvida deyil, yalnız əlvida demək olar. Yəni 30 il kifayətdir, təqaüdə çıxmaq vaxtıdır", - deyə Prezident İlham Əliyev IX Qlobal Bakı Forumunda bildirib.

Minsk qrupu tərəfindən hazırlanmış və Madrid prinsipləri adlandırılan prinsiplər öz həllini tapıb. Ermənistan və onun bəzi təəssübkeşləri onu həyata qaytarmağa çalışsalar da, bu, mümkün deyil. Minsk qrupu ilə bağlı spekulyasiyalar da faydasızdır. Ötən ayın 24-də Azərbaycanda səfərdə olan Rusiyanın xarici işlər naziri Sergey Lavrov da Minsk qrupunun fəaliyyətinin itirildiyini vurğulayıb. Xatırladaq ki, hələ bir neçə ay əvvəl Rusiya xüsusi tapşırıqlar üzrə səfir İqor Xovayevi Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasının təşviqi üzrə xüsusi nümayəndə təyin edib.

Azərbaycanın yaratdığı reallıqlar Minsk qrupunu tarixin arxivinə göndərib. Bu formatın gündəmdən çıxması da Azərbaycanın yaratdığı yeni reallıqların bir tərkib hissəsidir. Bütün bunlar bir daha təsdiq edir ki, müharibədən sonra regionda yaranmış yeni reallıqların gündəliyini və məzmununu İlham Əliyevin yürütdüyü qətiyyətli siyasət təşkil edir. Bu siyasət həm də özündə sülhə nail olmağı ehtiva edir. Hələlik buna müsbət cavab verməyən Ermənistanın başqa yolu da yoxdur. Prezident İlham Əliyevin dediyi kimi, onlar növbəti müharibə istəyirlərsə, bu, onlar üçün fəlakət olacaqdır. Bəli, 44 günlük müharibədən nəticə çıxarmaması Ermənistana yenidən baha başa gələ bilər.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# ADA Universiteti "Azərbaycan" qəzetinin (1918-1920-ci illər) tam külliyyatından III cildi nəşr edib

**1918-1920-ci illərdə çap olunmuş "Azərbaycan" qəzetinin tam külliyyatından III cildi latın qrafikasında nəşr edilib. Layihənin təşəbbüskarı ADA Universitetinin rektoru Hafiz Paşayevdir.**

AZƏRTAC xəbər verir ki, ADA Universitetinin dəstəyi ilə nəşr edilən III cild 1918-ci ilin dekabr ayını əhatə edir.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin orqanı olan "Azərbaycan" qəzetində rast gəlinən xəbərlər o dövrün hadisələrinə dair ilkin mənbələrdir. Məsələn, III cilddə "Qarabağ əhvalı" (1918-ci il, 5 dekabr, N 56) sərlövhəli yazıda oxuyuruq: "Ağdam Milli Komitəsindən və Ağdamda yaşayan Şuşa şəhəri sakinləri tərəfindən Azərbaycan Hökumətinə gələn teleqramlardan görünür ki, Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının dağbasar [dağətəyi] hissələrində toplanmış olan erməni üsyançıları tərəfindən müsəlman əhalisinə olmazın zülmlər edilir. Andranikin dəstəsi Şuşaya hücuma hazırlanır və əlyövm [hal-hazırda] Şuşanın 20 çağırımlıq (verst) bir məsafəsində "Müsəlmanlar" adlanan mövqedə vuruşma gedir. Yuxarıda adları yazılmış qəzaların erməniləri də Andranikin dəstəsinə qoşularaq əməliyyatda iştirak edirlər.

Bu hadisələr əhalinin həyəcanına və işdən-gücdən qalmasına səbəb olur. Bunun üçün də Ağdam Milli Komitəsi teleqraflarla Hökumətə müraciət edərək buna qarşı təcili tədbirlər ittixazını [görülməsini] rica edir".

Qəzetin 1918-ci il 7 dekabr 58-ci nömrəsində dövrün qabaqcıl ziyalılarından biri olan Xəlil İbrahimin "Azərbaycan Parlamanı dəvəti münasibətilə" yazısı isə bu günün oxucusuna Cümhuriyyət hökumətinin demokratikliyindən xəbər verir: "Azərbaycan türkləri həmişə ağalıq, hakimlik üçün deyil, hüquqi-milliyyə və bəşəriyyənin təmini üçün çalışdıqlarını bir daha isbat edərək, Cümhuriyyətimiz daxilində yaşayan ümum vətəndaşlarımızı həyatımızın quruluşunda iştiraka dəvət etdilər. Azərbaycanda heç millət, heç sinif, heç silk [təbəqə] hakim ya məhkum ola bilməz. Hamı vətənin həm ağasıdır, həm nökəri. Hər bir vətəndaş gərək ümumi vətənin səadəti ilə məsud, ələmi ilə müəlləm olsun [kədərlənsin]".

Kitabı vərəqlədikcə 1918-ci ildə müxtəlif sahələr üzrə problemlər göz önündə canlanır. "Bakıda xalq məktəbi müdirlərinin yığıncağı" (16 dekabr, N66), "Maarif müfəttişlərinin yığıncağı" (18 dekabr, N67, 19 dekabr N68 və s.) sərlövhəli yazılar dövrün təhsil problemləri haqqında oxucuda geniş təsəvvür yaradır.

Pedaqoq, publisist Fərhad Ağazadənin "Bakıda neft ticarəti və onun müxtəsərcə tarixi" (1918, 5 dekabr, N56) məqaləsi isə müvafiq sahəyə dair dəyərli mənbədir.

"Türkiyədə qadınlıq məsələsi" (Feminizm) (3 dekabr, N55) adlı məqalədə qadın hüquqları ilə yanaşı, övlad tərbiyəsinə də diqqət çəkilir. "Bir validənin ağuşunda böyüməkdə olan övladına qarşı məhəbbəti nə qədər çoxsa, tərbiyənin aldığı şəkil və cəsamətcə [böyüklüyə görə] o nisbətdə də vətəninə məhəbbət olar. Vətənin müşfiq validələri övladlarını hər tərəfdə qorumaq əsasına binaən [uyğun olaraq], hərb meydanlarına qədər gəlir: cəngavərlərin aldığı nişaneyiiftixarını - yarasını, sarar, baxar, onu bir çocuğu qədər nəvazişi nəzərlərə qərq edər".




ADA Universitetinin rektoru Hafiz Paşayev kitaba "Ön söz"də yazır: "Azərbaycan" qəzetindəki materiallar Azərbaycan Cümhuriyyətinin bilavasitə tarixini əks etdirir. Qəzetin səhifələrində Azərbaycan Hökumətinin qərarları, Parlament üzvlərinin çıxışları, paytaxtda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr öz əksini tapıb. Günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə dair materiallar oxucularda böyük maraq doğuracaqdır. Eləcə də Azərbaycan Cümhuriyyətinin xarici dövlətlərlə münasibətləri, dövrün ab-havası müfəssəl şəkildə qəzetin səhifələrində əks olunub. Ümumiyyətlə, bu qəzetin transliterasiyası Azərbaycan Cümhuriyyəti tarixşünaslığında yeni bir səhifə açacaq və gələcək tədqiqatlar üçün mühüm stimul olacaqdır.

İlk dörd nömrəsi Gəncədə, sonrakı nömrələri Bakıda nəşr edilən "Azərbaycan" qəzetinin 15 sentyabr 1918 - 28 aprel 1920 tarixləri arasında 443 nömrəsi çapdan çıxmışdır. Qəzetin redaktorları müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim kimi dövrün qabaqcıl ziyalıları olmuşdur. Qəzet əksəriyyətlə 4 səhifə həcmində çıxsa da, bəzi nömrələrdə səhifələrin sayı fərqlilik göstərir. Hər səhifədəki sütunların sayı və səhifələrin ölçüsü, qəzetin çap olunduğu 19 ay yarımlıq müddət ərzində bir neçə dəfə dəyişmişdir".

Qəzetin mətnlərini filologiya üzrə fəlsəfə doktoru Mehdi Gəncəli, filoloq, tərcüməçi Azad Ağaoğlu transliterasiya edib. Onlar transliterasiya zamanı mətnin orijinallığını qorumaqla yanaşı, materialların müasir oxucu üçün mümkün qədər anlaşılan olmasına çalışıblar. Bu səbəbdən bəzi sözlərin imlasını müasirləşdirmək lazım gəlib. Məsələn, "çoq", "yoq", "etməgi", "kibi", "numero" kimi sözlərin müasir yazılışına (çox, yox, etməyi, kimi, nömrə) üstünlük verilib. Eyni zamanda "teatro", "qəzetə", "böylə" kimi bəzi sözlərə toxunulmayıb. Bir tərəfdən, bu sözlər qəzetdə həmişə eyni cür yazılıb, digər tərəfdən də, mütaliəni çətinləşdirmədən dövrün ab-havasını saxlamağa xidmət edir.

Çətin anlaşılan söz və ifadələr üçün cildin sonuna lüğət əlavə etmək münasib görülməyib. Əvvəla, hər dəfə mütaliəni kəsərək lüğətə baxmaq oxucu üçün çətindir, ikincisi, bəzi sözlərin bir çox mənası içindən məhz hansının nəzərdə tutulduğunu təyin etmək barəsində oxucu tərəddüddə qala bilər. Çətin anlaşılan söz və ifadələrin necə başa düşülməli olduğu mətnin içində kvadrat mötərizədə göstərilib. Qəzetin hər nömrəsindən sonra əlavə edilən "Qeyd və şərhlər"də oxucular üçün faydalı məlumatlar yer alır. Cildin sonunda "Adlar göstəricisi" verilib.

Kitabı elektron formatda da əldə etmək mümkündür.

Xatırladaq ki, 1918-1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetinin tam külliyyatı 20 cilddə olacaq. I cild 1918-ci ilin sentyabr-oktyabr aylarını, II cild 1918-ci ilin noyabr ayını əhatə edir.

# TDT-yə üzv və müşahidəçi ölkələrin beyin mərkəzlərinin Şuşada keçirilən konfransı başa çatıb




Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə iyulun 3-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin beyin mərkəzlərinin konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda Azərbaycanla yanaşı, TDT-nin rəsmiləri və quruma üzv ölkələrin - Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan, həmçinin müşahidəçi ölkə olan Macarıstanın beyin mərkəzlərinin rəhbərləri və nümayəndələri iştirak ediblər.

Konfransın gündəliyində iki paneldə müzakirələr aparılıb. BMTM-in şöbə müdiri Cavid Vəliyevin moderatorluğu ilə keçirilən "Cənubi Qafqaz və Mərkəzi Asiya regionlararası platformasının gələcəyi" mövzusunda müzakirələrdə ilk söz BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyevə verilib. Azərbaycanın Vətən müharibəsindəki Zəfəri ilə regionda yeni reallıq yaratdığını qeyd edən BMTM-in sədri türk dövlətlərinin həmrəyliyindən, Şuşa konfransının əhəmiyyətindən danışıb. Gündəlikdəki əsas məsələnin türk dövlətlərinin Qarabağda aparılan bərpa və quruculuq işlərində iştirakı ilə bağlı olduğunu diqqətə çatdıran F.Şəfiyev bu toplantının növbədənkənar konfrans olduğunu deyib. Eyni zamanda bildirib ki, növbəti konfrans Özbəkistanda keçiriləcək. Həmin müddətdə TDT-nin Zirvə görüşü də təşkil ediləcək.

Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfərindən bəhs edən BMTM-in İdarə Heyətinin sədri bu yaxınlarda Azərbaycan, Türkiyə və Qazaxıstan xarici işlər nazirləri və nəqliyyat sahəsi üzrə məsul nazirlərin ilk dəfə üçtərəfli görüşü keçirildiyini qeyd edib, görüşün yekununda birgə Bakı Bəyannaməsinin imzalandığını vurğulayıb.

Şuşa şəhərinin 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı elan edildiyini diqqətə çatdıran Türk Dövlətləri Təşkilatının (TDT) baş katibinin müavini Qismət Gözəlov isə bununla bağlı tədbirlər planı hazırlandığını bildirib.

Q.Gözəlov TDT-nin 44 günlük Vətən müharibəsində Azərbaycana dəstək verdiyini, Azərbaycan xalqının haqq səsinin dünyaya çatdırılmasında səy göstərdiyini qeyd edib.

"Qlobal problemlər fonunda müəyyən çağırışlar meydana çıxır. Regionumuz həssas olduğu üçün birliyimizin, əməkdaşlığımızın möhkəmləndirilməsi diqqət çəkir. Dünyada çoxqütblülük problemi mövcuddur. Su qıtlığı, ərzaq çatışmazlığı və digər problemlər bizi çox narahat edir və bu problemləri həll etmək üçün həmrəy olmalıyıq. Türk dövlətləri bir yerdə daha güclüdür. Biz gələcəyə daha ümidlə baxırıq", - deyə Q.Gözəlov vurğulayıb.

Şuşa Bəyannaməsinin əhəmiyyətini qeyd edən TDT baş katibinin müavini məsələlərə ortaq mövqedən baxmağın daha həmrəy və güclü olmağa imkan verdiyini diqqətə çatdırıb.

Sonra çıxış edən Türkiyə Xarici İşlər Nazirliyi Strateji Araşdırmalar Mərkəzinin direktoru Ufuk Ulutaş deyib: "Bu gün Şuşada olmağımız təsadüfi deyil. Konfransın bu Zəfər şəhərində keçirilməsi qürurvericidir. Bu müqəddəs torpaq Şuşa Bəyannaməsinin imzalandığı şəhərdir. Türk dövlətləri olaraq çox uğurlu bir yoldayıq. Türkiyə bu yolun bir parçası olaraq fəaliyyətini davam etdirəcək. Azərbaycan-Türkiyə əməkdaşlığı Cənubi Qafqaz və Orta Asiya regionundakı münasibətlər sistemində bir nümunədir".

Özbəkistan Prezidenti yanında Strateji və Regional Araşdırmalar Mərkəzi direktorunun birinci müavini Əkrəmcan Nemətov Qarabağda aparılan nəhəng quruculuq işlərinin Azərbaycan dövlətinin siyasi iradəsini və xalqın ruh yüksəkliyini göstərdiyini vurğulayıb. "Azərbaycan cəmi bir neçə ayda miqyası çox böyük olan işlər görüb. Dövlətlər var ki, bu işləri reallaşdırmaq üçün onilliklər sərf edir", - deyə o əlavə edib.

Əkrəmcan Nemətov qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə həyatın yenidən dirçəldilməsi və insanların doğma torpaqlarına qaytarılması Azərbaycan dövlətinin qarşıya qoyduğu əsas vəzifələrdəndir. Azərbaycan bütün bu işləri öz gücünə görməyə qadir olan güclü dövlətdir.

Türkiyə Xarici İşlər Nazirliyi Diplomatik Akademiyasının icraçı direktoru Mesud Özcanın moderatorluğu ilə keçirilən ikinci paneldə "Regiondakı yeni geosiyasi reallıqlar və Türk Dövlətləri Təşkilatı" mövzusu ətrafında müzakirələr aparılıb.

Türk Dövlətləri Təşkilatı Macarıstan Ofisinin nümayəndəsi Zsofia Kraus Şuşa konfransında iştirak etməsindən məmnunluğunu ifadə edib. Beyin mərkəzlərinin Şuşa konfransının ümumi işə, türk dövlətləri arasında əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edən Macarıstan Ofisinin nümayəndəsi diqqətə çatdırıb ki, türk dövlətlərinin bir-birinə daha da yaxınlaşması, mövcud əlaqələrin dərinləşdirilməsi qlobal məsələlərin həllində öz köməyini göstərəcək.

Zsofia Kraus bu günlərdə Azərbaycan, Türkiyə və Qazaxıstanın xarici işlər və kommunikasiya nazirləri arasında imzalanan memorandumun əhəmiyyətindən də danışıb.

Qazaxıstan Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutunun direktoru Talqat Kalıyev, Qırğız Respublikası Strateji Araşdırmalar üzrə Milli İnstitutun eksperti Nurcan Djolçubek Uulu və digərləri mövzu ilə bağlı fikirlərini səsləndiriblər.

Bununla Şuşanın evsahibliyi etdiyi Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin beyin mərkəzlərinin konfransı işini başa çatdırıb.

Konfrans çərçivəsində qonaqlar Şuşanın görməli yerləri ilə də tanış olublar.

# "Ağır sınaqlarda sınmayan böyük alim: Yaqub Mahmudov" kitabı nəşr olunub




**Tədqiqatçılar Nazim Xəlilov və Elnur Nəciyevin "Ağır sınaqlarda sınmayan böyük alim: Yaqub Mahmudov" kitabı nəşr olunub.**

"Azərbaycan Tarixçiləri" İctimai Birliyindən AZƏRTAC-a bildirilib ki, yeni nəşrin elmi məsləhətçisi Dövlət Mükafatı laureatı, tarix üzrə fəlsəfə doktoru Güntəkin Nəcəfli, redaktoru tarix üzrə fəlsəfə doktoru Sevinc Məlikzadə, dizayneri riyaziyyat üzrə fəlsəfə doktoru Mehri Xanbabayeva, texniki redaktoru isə Esmira Kərimovadır.

Kitabda Əməkdar elm xadimi, Dövlət Mükafatı laureatı, akademik Yaqub Mahmudovun həyatı, elmi-pedaqoji və ictimai-siyasi fəaliyyəti barədə yığcam məlumat verilir. Nəşr ilk dəfə olaraq oxuculara tarixçi-alimin yenilənmiş bioqrafiyasını təqdim edir. Kitaba həmçinin Yaqub Mahmudovun maraqlı xatirələri, onun həyat və fəaliyyətini əks etdirən fotomateriallar daxil edilib.

